**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*əlyazması hüququnda*

**NİGAR ƏLƏDDİN QIZI ƏLƏKBƏROVA**

# DİN AZADLIĞI: BEYNƏLXALQ STANDARTLAR VƏ DÖVLƏTDAXİLİ QANUNVERİCİLİK (MÜQAYİSƏLİ TƏHLİL)

**İXTİSAS: 5603.01 – “Beynəlxalq hüquq; insan hüquqları”**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun “Beynəlxalq münasibətlər və beynəlxalq hüquq” şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **hüquq üzrə elmlər doktoru, professor Ə.İ.ƏLİYEV**

**Rəsmi opponentlər:** **hüquq üzrə elmlər doktoru, professor L.H.HÜSEYNOV**

**hüquq üzrə elmlər doktoru, professor O.F.ƏFƏNDİYEV**

**Aparıcı təşkilat:** **AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu**

Dissertasiya işinin müdafiəsi “_15__” “__02_” 2016-cı il tarixdə saat “_____” Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “___” “_________” 2016-cı il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** İctimai münasibətlərin sürətlə dəyişməsi və beynəlxalq birlikdə qloballaşma prosesinin geniş vüsət alması insan hüquqlarının qorunması, müdafiəsi və realizəsini zəruri amillərdən birinə çevirmişdir. Məhz bu baxımdan, qloballaşma insan hüquqlarının müdafiəsinin həm bütövlükdə, həm də onun ayrı-ayrı növləri kontekstində nəzərdən keçirilməsini və geniş təhlil edilməsini tələb edir[1]. Bütövlükdə, isə qloballaşma özünü üç istiqamətdə büruzə verir: müasir cəmiyyətin həyatını xarakterizə edən təzahür forması kimi; hazırkı cəmiyyətdə yaşayan insanların şüurunda və qavrayışında meydana gəlməklə, dəyişikliyə məruz qalan vasitə kimi; müasir cəmiyyət həyatının nəzəri baxımdan dərk olunmasında təzahür edən dəyişiklik forması kimi[2].

Bununla belə, qloballaşan cəmiyyət insan hüquqlarının və onun ayrı-ayrı növlərinin bərabərhüquqluluq şəraitində qorunması, müdafiəsi və təminatı zərurətini şərtləndirir. Həmçinin, insan hüquqlarının müdafiəsinin dövlətin iradəsindən asılı olmaması məsələsinin də nəzərə alınması vacib şərtlərdən biridir[3]. Bunun üçün isə din və insan hüquqları meyarını hərtərəfli və kompleks şəkildə qiymətləndirmək, o cümlədən onların qarşılıqlı əlaqəsinin düzgün qurulmasına xüsusi diqqət yetirmək vacibdir. Lakin din və insan hüquqları arasındakı münasibətlər bütün dünyada mürəkkəb və problemli məsələ qismində qiymətləndirilir. Bununla belə, müasir dünyada mövcud olan dinlərdən hər biri ümumilikdə insan hüquqlarının qorunması uğrunda aparılan mübarizədə həlledici rola malikdir. Eyni zamanda, məzmun, qarşılıqlı razılıq və konkret təzahür formaları baxımından məsələyə diqqət yetirsək, insan hüquqlarının bəşəriyyətdən və onun verdiyi dəyərlərdən asılı olduğu qənaətinə gəlmək olar. Digər tərəfdən, insanın inanc mənbəyi və mənəvi dəyərlərinin əsasında çıxış edən din həm də fərdin ləyaqət və məsuliyyətinin, hörmət və qorxu, müəyyən əməllərdən çəkinmə və təəssüf hisslərinin əsası qismində çıxış edir. Bütövlükdə isə dini insan hüquqları ilə birləşdirən ümumi cəhətlərdən biri də humanizm ideyalarının formalaşmasıdır.

[1] *Bu barədə ətraflı:* Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: "XXI – Yeni Nəşrlər Evi", 2005; Лукашук И.И. Глобализация, государство, право, XXI век. М., Спарк, 2000; Малевич Ю.И. Права человека в глобальном мире. М., АСТ, 2004.

[2] Dawson L.L. The cultural significance of new religious movements and globalization: A theoretical prolegomenon // Journal for the Scientific Study of Religion, 1998, Vol. 37, No 4, pp. 582-583.

[3] Barry E.Carter, Rhillip R.Trimble, Allen S.Weiner. International law. Fifth edition. New York, Wolters Kluwer, 2007, p.777-778; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, "Qanun" nəşriyyatı, 2012, s. 156-160; Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı: "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2013, s. 10-20.



Müvafiq məsələni din azadlığı kontekstində, xüsusilə həqiqi bəşəriyyətin və bəşəri qlobal cəmiyyətin formalaşdırılması baxımından nəzərdən keçirtsək, bu halda bir sıra problemlərin həll olunması zəruri şərt kimi qarşıya çıxır: çoxəsrlik axtarışlar nəticəsində insan təbiətinin və bəşəri ideyaların, xüsusilə, mənəvi dəyərlər və dini həqiqətlərin qiymətləndirilməsi; din və mədəniyyətin qarşılıqlı əlaqəsi barədə kompleks, mürəkkəb və bəzən də aydın olmayan ideyaların formalaşdırılması; dözümlülük, müxtəliflik və azadlıq anlayışları ilə bağlı fərqli, ayrı-ayrı və qarışıq, habelə qeyri-kafi fikirlərin meydana çıxması və dəstəklənməsi[4].

Bütövlükdə isə din azadlığı, bir tərəfdən, özünün ayrı-ayrı tərkib elementlərinə malikdir, digər tərəfdən, müxtəlif kateqoriyalarla (dünyəvilik[5], din-dövlət münasibətləri[6], dözümlülük[7], multikulturalizm[8]) qarşılıqlı əlaqəyə malikdir. Bu elementlər isə din azadlığının insan hüquqlarının müdafiəsinə dair beynəlxalq sənədlərdə ehtiva olunan normalara uyğun şəkildə təmininə və realizəsinə xidmət edən vasitəçi rolunu oynayırlar.

Şübhəsiz ki, müasir dövrdə dünyada dinlərə və din azadlığının təmin olunmasına qarşı münasibət eyni deyildir. Bəzi hallarda insanlar dini baxımdan müəyyən repressiya və təzyiqlərə, işgəncə və qeyri-insani rəftara məruz qalırlar. Məhz bu baxımdan, din azadlığının təmin olunması və müdafiəsi sahəsində təkcə dövlətlərin öhdəliklərinin yerinə yetirilməsinin önə çəkilməsi düzgün deyildir, eyni zamanda, müxtəlif dinlərə mənsub şəxslərin digərlərinə qarşı dözümlü davranması və qarşı tərəfin din azadlığına hörmətlə yanaşması daha məqsədəmüvafiq olardı. Bunu isə bir neçə aspektdən qiymətləndirmək olar. *Birincisi,* insanların din azadlığının mahiyyəti, məzmunu və hüquqi təbiətini dərk etməsi, habelə sözügedən subyektiv imkana qarşı yönəlmiş təhdidlərin qarşısının alınması və aradan qaldırılması üçün müvafiq tədbirlər görməsi zəruridir. *İkincisi,* fərdlər öz dini azadlıqlarının, eləcə də bu azadlıqdan irəli gələn rəhbər başlanğıcların və ayrı-ayrı elementlərin (məsələn, dünyəvilik, dözümlülük, dinin dövlətdən ayrılmasının realizəsi və s.) yerinə yetirilməsi üçün, ilk növbədə, heç bir ayrı-seçkiliyə yol vermədən digərlərinin dini etiqad və

[4] Shrader D.W. Beyond Tolerance: Globalization, Freedom, and Religious Pluralism / Humanity at the turning point: rethinking nature, culture and freedom: essays on contemporary philosophy. Edited by S.Servomaa. Helsinki: Renvall Institute for Area and Cultural Studies, 2006, p. 274.

[5] Morini C. Secularism and freedom of religion: the approach of the European Court of Human Rights // Israel Law Review, 2010, Vol. 43, pp. 611-630.

[6] Driessen M.D.P. Religion, State, and Democracy: Analyzing Two Dimensions of Church-State Arrangements // Politics and Religion, 2010, Vol. 3, No. 1, pp. 55-80.

[7] Adriansen C.V. Tolerance and Religious Freedom: The Struggle in Peru To Tolerate Multiple Cultures in Light of Principles of Religious Freedom // Brigham Young University Law Review, 2007, No 3, pp. 775-790.

[8] McCrudden Ch. Multiculturalism, freedom of religion, equality, and the British constitution: The JFS case considered // International Journal of Constitutional Law, 2011, Vol. 9, Issue 1, pp. 220-229.

əqidələrinə hörmətlə yanaşmalıdırlar. *Üçüncüsü,* milli və beynəlxalq səviyyədə hər bir şəxs üçün din azadlığının və dözümlülüyünün təşviqi və müdafiəsi məqsədilə, işəgötürənlər və müəssisələr hər bir kəsin dini etiqadına və ondan irəli gələn bütün məsələlərə ehtiram nümayiş etdirməlidirlər. Şübhəsiz ki, işçi də işədüzəlmə zamanı bu barədə işəgötürəni öncədən məlumatlandırmalıdır.

Onu da qeyd etmək lazımdır ki, din azadlığı nəinki özünə xas olan mahiyyət və məzmunu, tərkib elementlərini və ya əlaqəli kateqoriyaları (məsələn, din-dövlət münasibətləri, dünyəvilik, dözümlülük və s.) müəyyən edir, həm də müasir dövrdə insan hüquqlarının qorunmasına dair qlobal problemlərin həllinə də müəyyən təsir göstərir. Nümunə qismində din azadlığının gender bərabərliyi ilə qarşılıqlı əlaqəsini, eləcə də teokratik və dini dövlətlərdə qadın-kişi bərabərliyinin təmin olunmasına əsaslı şəkildə nüfuz etməsini göstərmək olar[9]. Digər tərəfdən, dünyada meydana çıxan bir sıra qlobal problemlərin kökündə məhz insanların din azadlığının pozulması və dini amillər dayanır. Hazırda dünyanın qarşısında duran daxili və beynəlxalq miqrasiya əsasında formalaşan məcburi köçkün və qaçqın problemi, habelə dini zəmində təqiblərə görə sığınacaq axtaran insanların axını məhz bu qəbildən olan məsələlər sırasına aiddir[10]. Bununla belə, din azadlığının və onun əsasında dayanan din meyarının inkişaf və humanitar meylli rolunu da unutmaq düzgün olmazdı[11].

Din azadlığı ilə meydana çıxan münasibətlərin beynəlxalq-hüquqi tənzimlənməsinə gəldikdə, müasir beynəlxalq hüquqda bu kateqoriya insan hüquqlarının tərkib hissəsi sayılmaqla, həm də digər subyektiv imkanların realizəsində özünü müəyyən dərəcədə büruzə verən komponent qismində çıxış edir. Onu da qeyd etmək lazımdır ki, beynəlxalq-hüquqi səviyyədə din azadlığını və onun ayrı-ayrı komponentlərini müəyyən edən vahid sənəd yoxdur. Bu istiqamətdə nümunə qismində yalnız 1981-ci il tarixli "Dözümsüzlüyün və din və ya əqidəyə əsaslanan ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" BMT Bəyannaməsi və YUNESKO çərçivəsində 1995-ci ildə qəbul olunmuş "Dözümlülüyün prinsipləri haqqında Bəyannamə"ni göstərmək olar. Lakin göründüyü kimi bu sənədlər də siyasi və tövsiyə xarakterli normaları təsbit etdiyindən öhdəlik müəyyənedici sənəd qismində nəzərdən keçirilə bilməz. Qeyd olunan sənədlər yalnız müvafiq subyektiv imkanın tərkib elementlərini və

[9] Stuart A. Freedom of Religion and Gender Equality: Inclusive or Exclusive? // Human Rights Law Review, 2010, Vol. 10, Issue 3, pp. 429-459.

[10] Fiddian-Qasmiyeh E. Introduction: Faith-Based Humanitarianism in Contexts of Forced Displacement // Journal of Refugee Studies, 2011, Vol. 24, Issue 3, p. 429.

[11] Ager A., Ager J. Faith and the Discourse of Secular Humanitarianism // Journal of Refugee Studies, 2011, Vol. 24, Issue 3, pp. 456-472; Ferris E. Faith-based and Secular Humanitarian Organizations // International Review of the Red Cross, 2005, Vol. 87, Issue 858, pp. 311-325.



bununla bağlı dövlətlərin fəaliyyəti üçün adət xarakterli başlanğıc akt rolunu oynaya bilərlər. Eyni fikri 1948-ci ildə qəbul olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 18-ci maddəsi barədə də demək mümkündür.

Din azadlığı ilə bağlı beynəlxalq müqavilə normalarına gəldikdə isə onun yalnız insan hüquqlarının müdafiəsinə dair ümumi sənədlərdə təsbit olunduğu fikrini irəli sürmək olar. Nümunə qismində 1966-cı il tarixli "Mülki və siyasi hüquqlar" haqqında Beynəlxalq Pakt (maddə 18), "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1965-ci il tarixli BMT Beynəlxalq Konvensiyası (maddə 5), "Uşaq hüquqların haqqında" 1989-cu il Konvensiyası (maddə 14), "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyası (maddə 9), 2000-ci ildə Avropa İttifaqı çərçivəsində qəbul olunmuş "Əsas hüquqlar haqqında Xartiya" (maddə 10), "İnsan və xalqların hüquqları üzrə" 1981-ci il Afrika Xartiyası (maddə 8), 1990-cı il tarixli "Uşaq hüquqları və rifahı haqqında Afrika Xartiyası" (maddə 9), 1969-cu il tarixli "İnsan hüquqları üzrə Amerikaarası Konvensiyası" (maddə 12), 1994-cü il tarixli "Qadınlara qarşı zorakılığın qarşısının alınması, cəzalandırılması və ləğv edilməsi haqqında Amerikaarası Konvensiya" (maddə 4) və s. sənədləri göstərmək olar.

Bununla belə, bir məsələni də qeyd etmək lazımdır ki, din azadlığı ilə bağlı vahid universal və ya regional beynəlxalq müqavilənin olmaması dövlətlərin bu sahədə öhdəliklərinin icrasının qeyri-mümkünlüyünü şərtləndirə bilməz. Ayrı-ayrı insan hüquqlarının, o cümlədən din azadlığının siyasi sənəddə və ya ümumi xarakterli beynəlxalq hüquq normasında nəzərdə tutulmasından asılı olmayaraq, dövlət bu sahədəki öhdəliklərini lazımi qaydada yerinə yetirməlidir. Bu hal isə həm bütövlükdə din azadlığına, həm də onun müxtəlif tərkib elementlərinə aiddir. Məhz bu baxımdan, din azadlığının qorunması və müdafiəsi dövlətin vəzifəsi olmaqla yanaşı, onun bir sıra elementlərinin təminatının zəruriliyi xüsusilə mühüm əhəmiyyət kəsb edir. Həmin elementlərə, xüsusilə, dini rəmzlərdən (məsələn, dini məzmunlu baş geyimləri və digər dini geyimlərdən istifadə, dini nişanlardan istifadə və s.) istifadə qaydalarının müəyyənləşdirilməsi və onlardan qanunsuz istifadəyə görə sanksiyaların tətbiqi, dini qurumların qeydiyyatı və onlara münasibətdə dövlətin öz bitərəfliliyini qoruyub saxlaması, cəzaçəkmə müəssisələrində dini azadlığının təmin olunması və realizəsi üçün zəruri addımların atılması, müəyyən kateqoriya şəxslərin (məsələn, qaçqınlar, əməkçi-miqrantlar, uşaqlar və s.) beynəlxalq hüquq normalarında nəzərdə tutulan din azadlıqlarının və onun müxtəlif elementlərinin həyata keçirilməsi üçün şəraitin yaradılması, habelə müddətli həqiqi hərbi xidmətlə din azadlığının qarşılıqlı əlaqəsinin düzgün qurulması kimi məsələlər daxildir. Bu sahədə sonuncu element müasir dövrdə - insan hüquqlarının

qorunmasının dövlətin ümdə vəzifə hesab edildiyi tarixi mərhələdə xüsusilə mühüm əhəmiyyət kəsb edir. Yəni, istənilən halda vətəndaşın konkret vəzifəsinin yerinə yetirilməsi və ya hər hansı hüququnun realizəsi onun digər subyektiv imkanının pozulması ilə nəticələnməməlidir. Daha dəqiq ifadə etsək, müasir dövrdə insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi vətəndaş vəzifələrinin yerinə yetirilməsi və insan hüquqlarının realizəsi imkanlarının uyğunlaşdırılmasını tələb edir. Bununla bağlı, praktiki cəhətdən Azərbaycan Respublikasının milli qanunvericiliyinə müraciət etsək, Konstitusiyanın 76-cı maddəsinin II hissəsinə görə, vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilir. Bu müddəa Azərbaycan vətəndaşının "vətəni müdafiə" vəzifəsinin icrası ilə onun "vicdan azadlığı"nın müdafiəsinin uyğunlaşdırılmasının konstitusion-hüquqi bazasını təşkil edir. Eyni zamanda, bunun davamı olaraq, Azərbaycan Respublikasının "Hərbi vəzifə və hərbi xidmət haqqında" 23 dekabr 2011-ci il tarixli Qanununun 3-cü maddəsinə əsasən, vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə zidd olduğu təqdirdə, qanunla müəyyən edilmiş hallarda həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilir. Qeyd olunan müddəalar Azərbaycan Respublikasının beynəlxalq müqavilələrlə üzərinə götürdüyü öhdəliklərin icrası və beynəlxalq hüquq normalarının ölkə qanunvericiliyinə implementasiyasının nəticəsi sayılmalıdır.

Ümumiyyətlə, müstəqillik qazandıqdan və beynəlxalq birliyin tamhüquqlu iştirakçısına çevrildikdən sonra insan hüquqlarının qorunması və müdafiəsi, habelə onun ayrı-ayrı növlərinin realizəsi üçün lazımi şəraitin yaradılması Azərbaycan dövlətinin prioritet istiqamətlərindən biri olaraq qalmaqda davam edir. Hətta böyük ictimai-siyasi şəxsiyyət və dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev din azadlığının müdafiəsi və qorunmasının, habelə dini amillərin və dözümlülüyün təmin olunmasının ictimai-siyasi proseslərə, beynəlxalq sülhə və təhlükəsizliyə təsiri məsələsini dəfələrlə vurğulamış, öz fəaliyyəti ilə bunu daim sübut etmişdir. Belə ki, 1998-ci ilin sentyabrında Bakıda keçirilən "Müasirlik və dini-mənəvi dəyərlər" mövzusunda Beynəlxalq Konfransa Ümummilli Liderin ünvanladığı məktubda qeyd olunan *"Dini dəyərlər hər bir cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni inkişafı üçün möhkəm zəmin yaradan mənəvi keyfiyyətlər formalaşdırır. XXI əsrin astanasında dini fəaliyyət sahələrində gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək üçün fikir mübadiləsi aparmaq xüsusi əhəmiyyətə malikdir. Yaşadığımız dövrün mürəkkəb və ziddiyyətli xarakteri dini-mənəvi dəyərlər məsələsinə münasibətdə*



*dəqiq, aydın və perspektivli bir mövqeyin işlənib hazırlanmasını aktuallaşdırır"* fikirlər bunun bariz nümunəsi sayılmalıdır[12].

Eyni zamanda, bunun davamı olaraq, həmin ilin dekabrında Bakı şəhərində keçirilmiş "İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq Simpoziumun açılış mərasimində söylədiyi nitqində də Ulu Öndər din azadlığının müdafiəsi kontekstində dözümlülüyün təmin edilməsinin vacibliyinə toxunmuşdur: *"Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir. Azərbaycanda İslam dini ilə yanaşı xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar. Dini nöqtey-nəzərdən əlavə, münaqişə, müharibə yolverilməzdir. Hər halda XX əsrin sonunda və XXI əsrdə dünyada belə hallara son qoyulmalıdır"*[13].

Müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycanda din azadlığının qorunması və tolerantlığın təmin olunması sahəsində düzgün və məqsədyönlü siyasət yeritməklə, ölkəmizin əsrlər boyu sivilizasiyalararası, millətlərarası, dinlərarası dialoqun aparılması üçün öz imkanlarını ortaya qoyduğu fikrini dönə-dönə qeyd etmişdir. Hətta cənab Prezidentin *"Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələrinin birgə yaşaması, bir ailə kimi yaşaması nadir təcrübədir. Beləliklə, Azərbaycan Avropa ilə Asiyanı, sivilizasiyaları birləşdirir, qarşılıqlı anlaşmanın bərqərar olması üçün səylərini göstərməkdədir"* fikri də bunun əyani sübutu hesab edilməlidir[14].

Din azadlığının dövlətdaxili hüquqi tənzimlənməsinə gəldikdə isə bununla bağlı kifayət qədər qanunvericilik bazası mövcuddur. Bu sahədə həm sahəvi qanunvericilik aktları və digər sənədlər *(məsələn, "Dini etiqad azadlığı haqqında" 20 avqust 1992-ci il tarixli Qanun, "Dini ekstremizmə qarşı mübarizə haqqında" 4 dekabr 2015-ci il Qanunu)*, həm də dini azadlığının müdafiəsi,

---

[12] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 45 cilddə. On yeddinci kitab: iyun 1998 – oktyabr 1998. Buraxılışa məsul R.Ə.Mehdiyev. Bakı: "Azərnəşr", 2006, s. 389-390.

[13] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 45 cilddə. On səkkizinci kitab: oktyabr 1998 – dekabr 1998. Buraxılışa məsul R.Ə.Mehdiyev. Bakı: "Azərnəşr", 2006, s. 352-535.

[14] "Bakı-2015" ilk Avropa Oyunları məşəlinin alovlandırılması mərasimi keçirilib // "Cəmiyyət və din" qəzeti, 04 aprel 2015-ci il, № 4 (285), s. 16.

təmini və realizəsi ilə bağlı müxtəlif aspektləri özündə ehtiva edən digər normativ aktlar *(məsələn, Cinayət Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, Ailə Məcəlləsi, "Polis haqqında" 28 oktyabr 1999-cu il Qanunu, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" 30 sentyabr 1998-ci il Qanunu, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" 5 avqust 2015-ci il tarixli Sərəncamı və s.)* qəbul edilmişdir.

Bundan əlavə, Azərbaycan Respublikasının müxtəlif istiqamətlər üzrə qəbul olunan və fərqli ictimai münasibətləri tənzimləyən qanunvericilik aktları da din azadlığının müdafiəsi ilə bağlı müəyyən normaları özündə əks etdirir. Belə ki, kütləvi-informasiya vasitələrinin fəaliyyəti və əlaqəli münasibətlər *(məsələn, "Reklam haqqında" 15 may 2015-ci il tarixli Qanun, "İctimai televiziya və radio yayımı haqqında" 28 sentyabr 2004-cü il tarixli Qanun, "Televiziya və radio yayımı haqqında" 25 iyun 2002-ci il tarixli Qanun, "Nəşriyyat işi haqqında" 30 may 2000-ci il tarixli Qanun və s.)*, cinayət və cəza-icra münasibətlərinin tənzimlənməsi *(məsələn, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 22 may 2012-ci il tarixli Qanun, "Cinayət işlərinə dair hüquqi yardım haqqında" 29 iyun 2001-ci il tarixli Qanun, "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" 15 may 2001-ci il tarixli Qanun və s.)*, mədəniyyət münasibətləri (*məsələn, "Mədəniyyət haqqında" 21 dekabr 2012-ci il tarixli Qanun, "Muzeylər haqqında" 24 mart 2000-ci il tarixli Qanun)*, ayrı-ayrı subyektiv imkanların realizəsi ilə bağlı münasibətlər *(məsələn, "Fərdi məlumatlar haqqında" 11 may 2010-cu il tarixli Qanun, "Sərbəst toplaşmaq azadlığı haqqında" 13 noyabr 1998-ci il tarixli Qanun, "Məlumat azadlığı haqqında" 19 iyun 1998-ci il tarixli Qanun, "Təhsil haqqında" 19 iyun 2009-cu il tarixli Qanun, "İnformasiya əldə etmək haqqında" 30 sentyabr 2005-ci il tarixli Qanun və s.)*, dövlət qulluğu ilə əlaqədar münasibətlər (*"Dövlət qulluğu haqqında" 21 iyul 2000-ci il tarixli Qanun, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" 31 may 2007-ci il tarixli Qanun və s.*), müəyyən sosial qrupların hüquqlarının müdafiəsinə dair münasibətlər *(məsələn, "Uşaq hüquqları haqqında" 19 may 1998-ci il tarixli Qanun və s.)*, ölkənin milli təhlükəsizliyi ilə bağlı məsələlər *(məsələn, "Milli təhlükəsizlik haqqında" 29 iyun 2004-cü il tarixli Qanun, "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" 29 iyun 2004-cü il tarixli Qanun və s.)*, eləcə də digər müxtəlif hallarla *(məsələn, "Sosial xidmət haqqında" 30 dekabr 2011-ci il tarixli Qanun, "Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakı haqqında" 11 may 2010-cu il tarixli Qanun, "Bədən tərbiyəsi və idman haqqında" 30 iyun 2009-cu il tarixli Qanun, "Yerli rəy sorğusu haqqında" 30 noyabr 1999-cu il tarixli Qanun, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" 13 iyun 2000-ci il tarixli Qanun, "Yeyinti məhsulları haqqında" 18 noyabr 1999-cu il tarixli Qanun və s.)* bağlı qəbul olunan dövlətdaxili qanunvericilik aktlarında din azadlığının bu və ya digər elementi, habelə din-dövlət münasibətlərinin ayrılmasına dair müddəalar öz əksini tapmışdır.



Şübhəsiz ki, din azadlığının ölkə daxilində müdafiəsi və qorunması, habelə onun təmini və realizəsi üçün şəraitin yaradılması təkcə qanunvericilik aktlarının və digər aidiyyəti normativ-hüquqi sənədlərin mövcudluğu ilə məhdudlaşdırılmamalıdır. Çünki istənilən hüquqi normanın effektivliyi onun həyata keçirilməsi üzərində monitorinq funksiyasının müəyyənləşdirilməsi ilə daha çox bağlıdır. Məhz bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixli 512 saylı Fərmanı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması istər din azadlığının sərbəst və maneəsiz realizəsində, istərsə də dini tolerantlığın təmin olunmasının təşkilati mexanizminin formalaşmasının əsasını qoydu. Belə ki, Komitə din azadlığının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini qurumların Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatının aparılması, bu qurumların nizamnamələrinə (əsasnamələrinə) müvafiq qaydada dəyişikliklər və əlavələr edilməsinin təmin olunması, dini qurumların xahişi əsasında dövlət orqanları ilə razılaşmalar əldə edilməsində və dövlət orqanları tərəfindən həlli tələb olunan məsələlərdə dini qurumlara lazımi yardım göstərilməsi, müxtəlif dini etiqadların dini qurumları arasında qarşılıqlı anlaşmanın və bir-birinə dözüm və hörmətli münasibətin möhkəmlənməsinə kömək edilməsi, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması kimi vəzifələri yerinə yetirir.

Bunun davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 15 may 2014-cü il tarixli Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması və sözügedən qurumun nizamnaməsinin təsdiq olunması, habelə 28 fevral 2014-cü il Sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri vəzifəsinin təsis olunması Azərbaycanda dözümlülüyün dövlət siyasətinin bir hissəsi olduğu fikrini bir daha sübut etmişdir.

Beynəlxalq münasibətlərin getdikcə genişlənməsi və dərinləşməsi, artan qlobal proseslərə adekvat reaksiya verilməsi məqsədilə din azadlığının düzgün və vətəndaşların vəzifələrinə uyğun şəkildə realizəsi üçün dünya təcrübəsinin

öyrənilməsi, eləcə də dünya dövlətləri ilə əməkdaşlığın həyata keçirilməsi də Azərbaycan dövlətinin bu sahədə yeritdiyi siyasətin bir hissəsini təşkil edir.

Ölkəmizdə din azadlığının hərtərəfli qorunması, müdafiəsi və təmin olunması, habelə digər dinlərə qarşı dözümlülüyün nümayiş etdirilməsinə praktiki təcrübəni statistik göstəricilər də sübut edir. Belə ki, rəsmi statistik rəqəmlərə istinad etsək, hazırda 2009-cu ildən etibarən 615 dini qurumun dövlət qeydiyyatına alındığının şahidi ola bilərik. Konfessional baxımdan onların 594-ü İslam, 21-i isə qeyri-islam *(xristian – 12; yəhudi – 6; krişna – 1; bəhai – 2)* təmayüllüdür. Əvvəllər qeydiyyatdan keçən qeyri-islam dini icmalarını da buraya əlavə etsək, ümumilikdə onların sayı 34-dür. Bundan əlavə, ölkə ərazisində 2054 məscid *(onlardan 135-i Bakı şəhərində yerləşir)*, 13 kilsə, 7 sinqaqoq fəaliyyət göstərir[15].

Azərbaycanda din azadlığının təmini ilə bağlı məsələlər beynəlxalq məruzəçilər tərəfindən də yüksək qiymətləndirilmişdir. Belə ki, BMT-nin İnsan Hüquqları Komitəsinin Din və ya etiqad azadlığı üzrə Xüsusi Məruzəçisi Asma Cahangirin 2006-cı ilin fevralından 26-dan martın 5-dək Azərbaycan Respublikasına səfəri və din azadlığı ilə bağlı keçirilən monitorinqə dair hesabatın 82-ci bəndində göstərilmişdir ki, normativ səviyyədə Konstitusiya din və ya etiqad azadlığı hüququ üçün əsas təminatları özündə əks etdirir və Azərbaycan dövlətinin dünyəvi xarakteri bu hüquqa bir daha təminatdır. Bundan əlavə, hesabatın 83-cü bəndində birbaşa olaraq qeyd olunur ki, mandata uyğun məsələlərlə bağlı Azərbaycanın ən fövqəladə xüsusiyyəti azərbaycanlılar tərəfindən dinə qarşı göstərilən tarazlı münasibətdir. Bu münasibətin əsas nəticəsi ümumilikdə əhalinin danılmaz tolerantlıq dərəcəsidir ki, bu da cəmiyyətdə din və ya etiqad azadlığının vacib hissəsini təşkil edir[16].

Bir sözlə, Azərbaycanda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst yaşamaları üçün bütün zəruri şərait yaradılmışdır[17].

Bununla bərabər, əhalinin müxtəlif sosial təbəqələri (uşaqlar, qadınlar, məhkumlar və s.) tərəfindən din azadlığının həyata keçirilməsi üçün lazımi şəraitin yaradılması, din-dövlət münasibətlərinin tənzimlənməsi, dünyəvilik və dözümlülük probleminə dair müddəaların əks olunduğu ayrı-ayrı dövlətlərin qanunvericilik təcrübəsinin öyrənilməsi, qarşılıqlı təcrübə və məlumat

---

[15] www.scwra.gov.az/pages/181/?

[16] BMT-nin İnsan Hüquqları Şurasının din və ya etiqad azadlığı üzrə xüsusi məruzəçisi Asma Cahangirin 2006-cı il fevralın 26-dan martın 5-dək Azərbaycana səfəri barədə Hesabatda əks etdirilmiş nəticələri və tövsiyələri. BMT Baş Assambleyası. A/HRC/4/21/Add.2. Tərc. üzrə baş red. İ.Məmmədov. Bakı, 2006, s. 6.

[17] Abdulla K. Multikulturalizm Azərbaycanda dövlət siyasəti səviyyəsinə qaldırılıb - www.az.trend.az/azerbaijan/politics/2318526.html



mübadiləsinin həyata keçirilməsi də sözügedən subyektiv imkanla bağlı elmi araşdırmanı zəruri edən şərtlərdən biridir.

Qeyd olunanlarla yanaşı, onu da nəzərə almaq lazımdır ki, Azərbaycan hüquq elmində din azadlığı hal-hazıradək kompleks şəkildə tədqiq olunmamış, onun yalnız bir sıra aspektləri konstitusiya hüququ (F.S.Abdullayev, Ə.H.Rzayev, Z.A.Əsgərov, İ.M.Cəfərov, F.S.Mehdiyev), cinayət hüququ, xüsusilə dini cinayətlər və əlaqəli ictimai-təhlükəli əməllərlə mübarizə (F.Y.Səməndərov, İ.M.Rəhimov, E.M.Əfəndiyev, F.Ə.Qəniyev), beynəlxalq hüquq (Ə.İ.Əliyev, L.H.Hüseynov, Ə.İ.Sadıqov, O.F.Əfəndiyev, R.F.Məmmədov) kontekstində araşdırılmışdır. Şübhəsiz ki, müvafiq məsələlər üzrə vicdan azadlığının tarixi inkişafı və formalaşması prosesləri, habelə bu sahədə hüquq-mühafizə fəaliyyəti (A.Ə.Məmmədzadə) sırf bioetika və dinin qarşılıqlı əlaqəsi (V.Q.Məmmədov, A.İ.Mustafayeva), BMT və onu ixtisaslaşmış qurumlarının fəaliyyət və strukturu, habelə sosial müdafiə sistemində islam dəyərləri (H.M.Rəcəbli), konkret sosial qrupların din azadlığının bəzi aspektləri (N.M.Fərziyeva, N.A.Adilov), geosiyasi maraqların müəyyən edilməsində din azadlığının rolu (T.B.Allahyarova), dini radikalizmlə mübarizə və multukulturalizm, eləcə də din-dövlət münasibətləri (E.M.Səmədov) barədə həyata keçirilən elmi-tədqiqatların da mövcudluğunu və əhəmiyyətini xüsusilə vurğulamaq lazımdır.

Tədqiqatın **obyektini** obyektiv reallıq kimi din azadlığının mahiyyət və məzmunu, **predmetini** isə din və insan hüquqlarının qarşılıqlı əlaqəsi kontekstində dəyərləndirilən din azadlığı və onun tərkib elementlərinə dair müddəaların əks olunduğu beynəlxalq sənədlər və Azərbaycan Respublikasının qanunvericilik aktları, habelə bu sahədə mövcud olan beynəlxalq məhkəmə praktikası təşkil edir.

**Tədqiqatın məqsədi** müvafiq beynəlxalq hüquq normaları və milli qanunvericilik aktları, bu sahədə meydana çıxan fikir müxtəlifliyinin geniş təhlili əsasında din azadlığı ilə bağlı müddəaları müəyyənləşdirməkdən, eləcə də beynəlxalq və dövlətdaxili səviyyədə tənzimetməyə ehtiyacı olan istiqamətlər üzrə yeni normaların qəbulu ilə bağlı təklif və tövsiyələr irəli sürməkdən ibarətdir.

Göstərilən məqsədə nail olmaq üçün dissertasiya işində **aşağıdakı vəzifələr** qarşıya qoyulmuşdur:

- hüquqi, fəlsəfi, sosioloji, antropoloji, kulturoloji və digər aspektlər baxımından dinin anlayışını müəyyən etmək, habelə onun hüquq normaları ilə qarşılıqlı təsiri kontekstində cəmiyyətdəki tənzimetmə sistemində yerini və rolunu aşkara çıxarmaq;

- elmi-nəzəri müddəalar və müxtəlif dövlətlərin qanunvericiliyinin qarşılıqlı və müqayisəli təhlili əsasında din azadlığının mahiyyət və məzmununu təhlil etmək;

- "din azadlığı" və "vicdan azadlığı" kateqoriyalarını təhlil edib araşdırmaqla, onları xarakterizə edən ümumi və fərqli cəhətləri nəzərdən keçirmək;

- din-dövlət münasibətlərinin tənzimlənməsinin əsas aspektlərini təhlil etmək;

- dinin dövlətdən ayrılması prinsipinin həyata keçirilməsi və düzgün qiymətləndirilməsi baxımından aparılan dövlət siyasətini nəzərdən keçirmək;

- din-dövlət münasibətlərinin mövcudluğu kontekstində dünyəvilik problemini araşdırmaq, eləcə də onun ölkələrin ərazisində din azadlığının müdafiəsi və dözümlülüyün təmini ilə qarşılıqlı əlaqəsini aşkara çıxarmaq;

- din azadlığı və onun müxtəlif aspektlərinə dair beynəlxalq məhkəmə təcrübəsini təhlil etmək;

- bu sahədə mövcud olan beynəlxalq məhkəmə təcrübəsi əsasında formalaşan presedent hüququnun dövlətdaxili məhkəmələrin fəaliyyətinə təsirini araşdırmaq və təhlil nəticəsində meydana çıxan boşluqların həlli yollarını göstərmək;

- dini etiqadla bağlı pozulmuş hüquqların bərpası və məhkəmə müdafiəsi ilə bağlı Azərbaycan Respublikasının qanunvericilik müddəalarını təhlil etmək və müvafiq təkliflər vermək;

- din azadlığının beynəlxalq müdafiəsi, təminatı və yerinə yetirilməsinə dair əsas müddəaların müəyyənləşdirilməsində aparıcı vasitə kimi universal müqavilə normalarını və təşkilati mexanizmlərin fəaliyyətini araşdırmaq;

- insan hüquqlarının müdafiəsinə dair universal sənədlərdə təsbit olunmuş din azadlığı ilə müddəaların öyrənilməsi və təhlili əsasında qloballaşma şəraitində bu sahədə meydana çıxan yeni təzahür formalarını, xüsusilə multikulturalizmi təhlil etmək;

- müxtəlif meyarlar əsasında yaradılmış ayrı-ayrı regional beynəlxalq təşkilatlar çərçivəsində qəbul olunmuş insan hüquqlarının müdafiəsinə dair sənədlərdə din azadlığı və onun ayrı-ayrı elementlərini təhlil etmək;

- müxtəlif beynəlxalq sənədlərin araşdırılması kontekstində ziddiyyətli normaları üzə çıxarmaq və bununla əlaqədar müvafiq təkliflər vermək;

- din azadlığının qorunması, müdafiəsi və realizəsinə dair Azərbaycan Respublikasının milli qanunvericiliyinin ayrı-ayrı aspektlərini qarşılıqlı və müqayisəli əsaslar üzrə tədqiq etmək;



- bu sahədə qəbul olunmuş mühüm beynəlxalq hüquq normalarının ölkəmizin milli qanunvericiliyinə implementasiyası ilə bağlı görülən tədbirləri müəyyən etmək, habelə müqayisəli təhlillər əsasında mövcud olan üstünlük və çatışmazlıqları aşkara çıxarmaq.

**Tədqiqatın metodoloji əsasını ümumnəzəri** və sosial-elmi idrak metodları təşkil edir. Dissertasiyada formal-məntiqi və müqayisəli-hüquqi metodlardan daha geniş şəkildə istifadə olunmuşdur. Tədqiqat işində sistemli, konkret-sosioloji, tarixi və digər elmi metodlar da tətbiq edilmişdir.

**Tədqiqatın nəzəri əsası.** Dissertasiya işini hazırlayarkən müəllif Abdullayev F.S., Abdullayev K.M., Adilov N.A., Rzayev Ə.H., Cəfərov İ.M., Əfəndiyev O.F., Əliyev Ə.İ., Əliyev Z.H., Əsgərov Z.A., Hüseynov L.H., Hüseynov T.İ., Mehdiyev R.Ə., Məmmədov R.F., Məmmədov V.Q., Məmmədzadə A.A., Məmmədzadə İ.R., Məmmədzadə R.R., Mustafayeva A.İ., Rəcəbli H.M., Rəhimov İ.M., Sadıqov Ə.İ., Aminov İ.R., Antoşin V.A, Bellinq D.V., Boyko A.V., Buryanova S.A., Deyvis D., Jivulin V.A., Qavrilenkov A.F., Kartaşkin V.A., Kaşepov V.P., Katunin Y.A., Lukaşeva E.A., Melnikova E.N., Olxovikov K.M., Rudinskiy F.M., Serova N.B., Starostenko V.V., Şaxov M.O., Vatoropin A.S., Vişnyakova İ.N., Aufrich H., Borgen C.J., Montgomery J., Morava A., Morini C., Murdoch J., Nmehielle V.O., Robbers G., Shelach H. və digər tanınmış alimlərin əsərlərinə istinad etmişdir.

Bundan əlavə, insan hüquqlarına dair çoxsaylı beynəlxalq sənədlər, beynəlxalq təşkilatların aktları, insan hüquqları müdafiəsi sahəsində nəzarət mexanizmi orqanlarının – BMT-nin İnsan Hüquqları Komitəsi, Avropa İnsan Hüquqları Məhkəməsi, Avropa İttifaqı Məhkəməsi, İnsan Hüquqları üzrə Amerikaarası Məhkəmə, İnsan və Xalqların Hüquqları üzrə Afrika Komissiyasının qərarları, habelə bu sahədə Azərbaycan Respublikasının və çoxsaylı xarici ölkələrin qanunvericilik aktlarının müxtəlif müddəaları və məhkəmə təcrübəsi qarşılıqlı və müqayisəli əsaslarla geniş şəkildə təhlil olunmuşdur.

**Dissertasiyanın elmi yeniliyi** ondan ibarətdir ki, bu işdə Azərbaycan hüquq elmində ilk dəfə olaraq, beynəlxalq-hüquqi baxımdan din azadlığının təbiəti və məzmunu kompleks tədqiq edilmiş, müvafiq subyektiv imkanın təmin edilməsi ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyinin və beynəlxalq standartların müqayisəli təhlili aparılmışdır. Bundan əlavə, beynəlxalq sənədlərdə təsbit olunmuş müddəalar əsasında din və vicdan azadlığının qarşılıqlı əlaqəsi, habelə bu kateqoriyaların ümumi və fərqli xüsusiyyətləri aşkara çıxarılmışdır. Eyni zamanda, Azərbaycan Respublikasının qanunvericiliyində müvafiq subyektiv imkanın "vicdan azadlığı" (Konstitusiyanın 48-ci maddəsi) və "dini etiqad azadlığı" (20 avqust 1992-ci il

tarixli "Dini etiqad azadlığı haqqında" haqqında Azərbaycan Respublikasının Qanunu) kimi ehtiva olunması məsələsi də nəzərdən keçirilmişdir. Bütövlükdə isə, tədqiqatın elmi yeniliyi daha konkret olaraq müdafiəyə çıxarılan aşağıdakı **yeni elmi müddəalarla** ifadə olunur:

1. Din azadlığında din və insan hüquqlarının qarşılıqlı əlaqəsini qiymətləndirərkən onların hədd və meyarlarının dəqiq müəyyən olunması zəruridir. Çünki din sosial norma qismində əxlaq normalarına əsaslanmaqla, insanların davranışının bir hissəsini tənzimləyir. Dini dövlətlər istisna olmaqla, bu tənzimetmə məcəllələşdirilmiş şəkildə deyil, yalnız dini müddəalara əsaslanır. Yəni, hər hansı hüquqi məsuliyyət və hüquqi nəticədən söhbət gedə bilməz. Lakin hüquq normaları səlahiyyətverici, məcburedici və qadağanedici aspektləri müəyyən etməklə hüquq münasibətlərinin iştirakçılarının konkret davranışını nəzərdə tutur. Məhz bu baxımdan din və insan hüquqlarının qarşılıqlı əlaqəsini müəyyən etməklə, onların fərqləndirici cəhətlərinin nəzərə alınması da məqsədəmüvafiq olardı.

2. Vicdan azadlığı mənəvi baxımdan, insanın daxili inamı, habelə özünə və başqalarına qarşı müəyyən mühakimə yürütmək vasitəsi qismində dəyərləndirildiyi halda, hüquqi baxımdan din azadlığı ilə sıx qarşılıqlı əlaqəyə malikdir. Məhz bu baxımdan onlar arasında dəqiq sədd çəkmək və ciddi fərqləndirmələr də aparmaq çətindir. Çünki istər vicdan azadlığı, istərsə də din azadlığı son nəticədə insanların dini ehtiyaclarının ödənilməsinə, onların dinə münasibəti və bundan irəli gələn digər məsələlərin həyata keçirilməsinə yönəlmişdir. Eyni zamanda, din azadlığı müəyyən tərkib elementlərinə malik olmaqla, insanların dini dünyagörüşünün əsasını təşkil edən hüquqi kateqoriyadır. Bu termin fərdlərin etiqad və əqidələri ilə bağlı hədləri özündə geniş şəkildə ehtiva edir. İstənilən halda müvafiq subyektiv imkanın din azadlığı kimi ifadə edilməsi və bu qaydada məzmununun müəyyən olunması daha məqsədəmüvafiq olardı. Çünki din azadlığı daha geniş mənada ifadə edilməklə, həm ənənəvi və qeyri-ənənəvi dinləri, həm də dini etiqadla bağlı məsələləri kompleks şəkildə özündə birləşdirir.

3. Din azadlığını qiymətləndirərkən ona kompleks şəkildə yanaşmaq zəruridir. İlk növbədə, qeyd etmək lazımdır ki, din azadlığını təkcə ilahi qüvvəyə sitayiş və ya dinlə əlaqələndirmək düzgün deyildir. Çünki bu subyektiv imkan həm də ateist olmaq və ateizmi yaymaq, yaxud heç bir dinə etiqad etməmək hüququ kimi elementləri də özündə birləşdirir. Digər tərəfdən, dinlə əlaqəsi olmayan istənilən dünyagörüşün seçilməsi və onun qorunub saxlanması da din azadlığının tərkib hissəsi sayıla bilər. Din azadlığı hüquqi, sosial və fəlsəfi kateqoriya qismində nəzərdən keçirilməlidir. Belə ki, hüquqi baxımdan insan



hüquqları və dövlətin vəzifəsini qarşılıqlı olaraq şərtləndirdiyi halda, digər mənalarda din azadlığı insanların dini ehtiyaclarını ödəmək forması kimi dəyərləndirilir. Digər tərəfdən, din azadlığının müdafiəsi həm də digər subyektiv imkanların (bərabərlik hüququ, təhsil hüququ, əmək hüququ, şəxsi toxunulmazlıq hüququ, nikah hüququ, istirahət hüququ, mədəniyyət hüququ, milli mənsubiyyət hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ, fikir azadlığı, sərbəst toplaşmaq azadlığı, siyasi sığınacaq hüququ) və vəzifələrin (məsələn, vətəni müdafiə, tarixi və mədəniyyət abidələrinin qorunması, vergilər və başqa dövlət ödənişləri və s.) həyata keçirilməsi kontekstində vacib meyarlardan biri kimi özünü büruzə verir.

4. Din azadlığına dair müddəalar universal və regional səviyyədə yalnız insan hüquqlarının müdafiəsinə dair ümumi normaları nəzərdə tutan beynəlxalq müqavilələrdə, eləcə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən siyasi xarakterli normalarda öz əksini tapmışdır. Doğrudur, bu sahədə beynəlxalq nəzarət mexanizmləri və məhkəmə qurumlarının təfsir və qərarları mühüm rol oynasa da, din azadlığının mahiyyət və məzmunu mübahisə obyekti olaraq qalmaqda davam edir. Bununla əlaqədar din azadlığı, onun tərkib elementləri, habelə din azadlığı ilə vicdan azadlığını fərqləndirəcək əlamətləri, o cümlədən bu sahədə məhdudiyyətləri dəqiq ifadə edən, daha sonra özündə beynəlxalq nəzarət mexanizmi sistemini müəyyən edən yekdil beynəlxalq-hüquqi aktın qəbulu məqsədəmüvafiq olardı.

5. Din-dövlət münasibətlərinin şəffaf, demokratik dəyərlər və qarşılıqlı əməkdaşlıq şəraitində qurulduğu cəmiyyət və dövlətlərdə din azadlığının qorunması və müdafiəsi çox mühüm əhəmiyyət kəsb edir. Bu halda, müəyyən istisnalar (ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması; əhalinin əxlaqı və sağlamlığının qorunması; konstitusion quruluşa və dövlət mənafelərinə qarşı yönəlmiş qəsdlərin qarşısının alınması; terrorçuluq, separatçılıq, ekstremizm meylləri ilə mübarizə və onların ayrı-ayrı ünsürlərinin aradan qaldırılması və s.) nəzərə alınmaq şərti ilə, din azadlığı istənilən dinə etiqad etməyi və ya heç bir dinə etiqad etməməyi nəzərdə tutur. Bu isə yalnız dünyəvi dövlətin bərqərar olduğu cəmiyyətlərdə tam və azad şəkildə təmin edilə bilər. Çünki dini dövlətdən fərqli olaraq, dünyəvi dövlətdə dinin dövlətdən və təhsildən ayrılması tendensiyası mövcuddur. Bu da, öz növbəsində, dövlət hakimiyyəti orqanlarının dini təsirdən azad olmaqla, din azadlığı ilə bağlı məsələlərə neytral mövqedən yanaşmasını şərtləndirir.

6. Demokratik cəmiyyətlərdə din-dövlət münasibətlərinin tənzimlənməsində dünyəvilik əsas baza rolunu oynayır. Çünki avtoritar və totalitar dövlətlərdən fərqli olaraq, demokratik dövlətlərdə bütün dinlərə etiqad

olunmasına dair bərabər şəraitin yaradılması və bunun hüquqi əsasının formalaşdırılması yalnız demokratik dəyərlərin qorunduğu və hüquqi dövlətin mövcud olduğu şəraitdə mümkün ola bilər. Bunun üçün isə dinin dövlətdən və dövlət siyasətindən ayrı olması əsas şərtdir. Dünyəvilik təkcə özünün mahiyyət və məzmunu, habelə özünəməxsus cəhətləri ilə seçilmir, həm də bir sıra müstəqil elementlərə (dinin dövlətdən ayrılması; din-dövlət münasibətlərinin beynəlxalq hüquq normalarına, insanların bərabərliyinə, eləcə də insan hüquqlarının qorunması, müdafiəsi və yerinə yetirilməsinin vacibliyinə əsaslanan dövlətdaxili hüquqi aktlar əsasında tənzimlənməsi; dünyəvi və dini təhsil sistemlərinin müstəqil şəkildə mövcudluğu; ölkə ərazisində mövcud olan bütün dinlərə münasibətdə dözümlülüyün nümayiş etdirilməsi və s.) malik olması ilə fərqlənir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsində deyilir ki, "Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir".

7. Beynəlxalq-hüquqi sənədlərdə və dövlətdaxili qanunvericilikdə təkcə hansı formada adlandırılmasından asılı olmayaraq din azadlığının mahiyyət və məzmununun nəzərdə tutulması kifayət etmir, eyni zamanda, bu subyektiv imkanın məhkəmə müdafiəsinin təmin olunması da mühüm əhəmiyyət kəsb edir. Şübhəsiz ki, bu məsələdə insanların hüquq düşüncəsinin düzgün istiqamətləndirilməsi və hüquq mədəniyyətinin lazımi qaydada formalaşdırılması önəmli rola malikdir. Məhz bu baxımdan, dövlətdaxili səviyyədə din azadlığının məhkəmə müdafiəsinin təminatı zamanı beynəlxalq hüququn *jus cogens* normaları, eləcə də insan hüquqlarının qorunmasına dair beynəlxalq sənədlərdə nəzərdə tutulmuş müddəaların tələbləri nəzərə alınmalı, dövlətlərin üzərinə qoyulan öhdəliklər yerinə yetirilməlidir. Bu cəhətdən Azərbaycan Respublikası tərəfindən istər beynəlxalq hüquq normalarında iştirak, istərsə də milli səviyyədə müvafiq qanunvericilik aktlarının qəbulu din azadlığının təminində xüsusi əhəmiyyətə malikdir. Lakin məhkəmə təminatının müəyyənləşdirilməsi heç də dini etiqadla məşğul olan insanlara və ya dini qurumlara din pərdəsi adı altında sui-istifadə fəaliyyəti ilə məşğul olmağa əsas vermir. Bunu "Dini ekstremizmə qarşı mübarizə haqqında" 4 dekabr 2015-ci il tarixli Azərbaycan Respublikası Qanununun vaxtında qəbulu da sübut edir. Belə ki, Qanunun 3-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının konstitusiya quruluşunun əsaslarının, habelə ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, dini ekstremist fəaliyyətin aşkar edilməsi, qarşısının alınması və dini ekstremizm nəticəsində gözlənilən zərərin minimuma endirilməsi, o cümlədən dini ekstremizmin yaranması və dini ekstremist fəaliyyətin həyata keçirilməsi səbəblərinin və şəraitinin, habelə dini



ekstremizmin maliyyələşdirilməsi hallarının aşkar və ləğv edilməsi dini ekstremizmə qarşı mübarizənin məqsədləri sırasına daxildir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatçının təklif və tövsiyələrindən Azərbaycan Respublikasının bu sahədəki normayaradıcılıq fəaliyyətində, dini qurumların qeydiyyatı, din azadlığı, dövlət maraqlarının qorunması və təhlükəsizliyinin təmin olunması məqsədilə insan hüquqlarının məhdudlaşdırılması ilə bağlı məsələlərə təsir göstərə bilən müxtəlif dövlətdaxili qanunvericilik aktlarının qəbul edilməsi və təkmilləşdirilməsində, eləcə də aidiyyəti beynəlxalq sənədlərin, xüsusilə din azadlığı və dözümlülüklə bağlı beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə implementasiyası zamanı istifadə oluna bilər.

Dissertasiya tədqiqatının materialları və müddəaları beynəlxalq hüquqla milli hüquq sisteminin qarşılıqlı əlaqəsi baxımından gələcək elmi-nəzəri araşdırmalar üçün əsas baza rolunu oynaya bilər. Eyni zamanda, dissertasiya materiallarından insan hüquqları, konstitusiya hüququ, cinayət hüququ, beynəlxalq hüquq və s., o cümlədən siyasi elmlər üzrə istiqamətlərdə tədris prosesində geniş istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan MEA Fəlsəfə və Hüquq İnstitutunun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq" şöbəsində yerinə yetirilmiş, geniş müzakirə edilərək əsas müdafiəyə tövsiyə edilmişdir. Tədqiqat işinin əsas müddəaları müəllifin dissertasiyasının mövzusu üzrə Azərbaycan Respublikası və Ukraynanın nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə (azərbaycan, rus və ingilis) dərc etdirdiyi elmi əsərlərdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və strukturu haqqında məlumat verilir.

**I Fəsil "İnsan hüquqlarının tərkib hissəsi kimi din azadlığının təhlili: elmi-nəzəri müddəaların və hüquq normalarının qarşılıqlı əlaqəsi kontekstində" adlanmaqla özündə üç paraqrafı birləşdirir.**

**Birinci paraqrafda** dinin anlayışı və əsas məzmunu kontekstində din və insan hüquqlarının qarşılıqlı əlaqəsinin əsas aspektləri təhlil olunur.

İlk növbədə, qeyd etmək lazımdır ki, dinin anlayışı, onun məzmunu və mahiyyəti sosioloji, fəlsəfi, kulturoloji, psixoloji, iqtisadi və hüquqi baxımdan elmi-nəzəri ədəbiyyatlarda müxtəlif aspektlərdən qiymətləndirilir. Belə ki, din və ondan irəli gələn dini fəaliyyət iqtisadi ədəbiyyatlarda gizli iqtisadi rasionallığı ifadə edən kateqoriya[18], sosioloji aspektdən dinlərin və müqəddəs əşyalarla bağlı adətlərin və ya ayinlərin ümumi sistemini göstərən termin[19], psixologiyada təkamülün məhsulu sayılan insan ağlına təsir edən vasitə[20], fəlsəfi baxımdan isə dini praktikanın və ümumiyyətlə dindarın gündəlik fəaliyyətinin əsasında duran səmimi inam, eləcə də dindarların ilahi reallıq, dünya və özü haqqında bilgisi qismində nəzərdən keçirilir[21]. Eyni zamanda, müasir dövrdə formalaşan dini fəlsəfə isə dinlə (yaxud etiqadla) elmlərin qarşılıqlı əlaqəsini özündə birləşdirir. Bu hal öz-özlüyündə dinin və ya etiqadın dərk edilməsində bir sıra nəzəri mövqelərin üzə çıxarılmasını şərtləndirir[22].

Hüquq elmində aparılan araşdırmalarda isə "din" kateqoriyası müxtəlif aspektlərdən təhlil edilir. Belə ki, bir sıra müəlliflər bu termini hər bir insana məxsus fərdi məsələ, onun daxili hissiyyatı və idrakı hesab etdiyi halda[23], digər qrup alimlər dini cəmiyyətin həyatında sivilizasiyanın elementlərini özündə əks etdirən mənbə və gündəlik həyatda cəmiyyətə hərtərəfli təsir edən mühüm vasitə kimi təhlil edirlər[24]. Beynəlxalq hüquq elmində isə "din"in hüquqi anlayışı qarşılıqlı əlaqədə olan iki ayrı-ayrı elementin – din azadlığının müdafiə olunması, eləcə də dinlə bağlı ayrı-seçkiliyin və ya təqibin qadağan edilməsi kimi müddəaların kompleks qiymətləndirilməsi kontekstində nəzərdən keçirilir[25].

İnsan hüquqlarının müdafiəsinə dair müxtəlif beynəlxalq nəzarət mexanizmləri də dinin anlayışının hüquqi baxımdan müəyyənləşdirilməsi və təfsirinə öz töhfələrini bəxş etmişlər. İnsan Hüquqları Komitəsinin "Mülki və

[18] Rodney S., Finke R. Acts of Faith: Explaining the Human Side of Religion. Berkeley: University of California Press, 2000, p. 48.
[19] Durkheim E. The Elementary Forms of Religious Life. New York: Free Press, 1975, p. 62.
[20] Hinde, R.A. Why Gods Persist: A Scientific Approach to Religion. New York: Routledge, 1999, pp. 68-71.
[21] Rüstəmov Y.İ. Fəlsəfənin əsasları (mühazirə kursu). Bakı: "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, s. 474-476.
[22] Orum F. Kur`an ve Sünnet Temelinde Kur`anı Anlama Uslubu. İstanbul: Süleymaniye Vakfı Yayınları, 2013, s. 56.
[23] Вишнякова И.Н. Конституционно-правовое регулирование свободы вероисповедания. Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. М.: 2000, с. 5-6.
[24] Рон Хаббард Л. Влияние религии в обществе. Роль добровольного священника // Что такое Саентология. М.: 1998, с. 350.
[25] Gunn T.Jeremy. The Complexity of Religion and the Definition of "Religion" in International Law // Harvard Human Rights Journal, 2003, Vol. 16, p. 195.



siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"ın 18-ci maddəsinin təfsir edilməsinə yönəlmiş 1993-cü il tarixli 22 nömrəli Ümumi Rəyində din və ya etiqad azadlığını geniş mənada təfsir etmişdir ki, bu da özündə dini, qeyri-dini və ya ateist etiqad azadlığını, eləcə də bu etiqadların heç birini ifadə etməmək azadlığını birləşdirir. Eyni zamanda, qeyd olunmuşdur ki, Beynəlxalq Paktın 18-ci maddəsinin ənənəvi dinlər, institusional xarakterlərə malik din yaxud etiqadlar, və ya ənənəvi dinlərlə eynilik təşkil edən analoji təcrübələrlə bağlı tətbiqinin məhdudlaşdırılması yolverilməzdir[26].

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı dinin anlayışını xarakterizə edərkən onun iki əsas hissədən – etiqad və qeyri-etiqaddan ibarət olması qənaətinə gəlmişdir. Dinin əsasını təşkil edən etiqad termini isə üç aspektdən – teist, qeyri-teist və ateist əqidələr kontekstində qiymətləndirilmişdir[27].

Konkret işlər *("X Böyük Britaniyaya qarşı" (1977), "Jan Ake Karisson İsveçə qarşı" (1988), "Müqəddəs monstırlar Yunanıstana qarşı" (1994), "Yanasik Türkiyəyə qarşı" (1993) və s.))* üzrə Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən çıxarılan qərarlarda isə əksər dinlərə məxsus olan prinsip xarakterli müddəaların qənaətbəxş səviyyədə olması, habelə din-dövlət münasibətlərinə dair normalar öz əksini tapmışdır. Bununla belə, qeyd olunmuşdur ki, azlıqda olan dini etiqadlar və yeni dini təşkilatlarla bağlı meydana çıxan məsələlərin müəyyənləşdirilməsi isə mürəkkəb xüsusiyyətlərə malikdir[28].

**İkinci paraqrafda** elmi-nəzəri fikirlər və praktiki müddəalar əsasında din azadlığının məzmunu və əsas mahiyyəti araşdırılır.

Elmi-nəzəri araşdırmalarda din azadlığı fərqli kontekstdə və müxtəlif formalarda təhlil edilərək tədqiqat obyektinə çevrilmişdir. Bütövlükdə isə din azadlığının mahiyyət və məzmununu qiymətləndirərkən, elmi-nəzəri ədəbiyyatlarda mövcud olan fikirləri kompleks şəkildə nəzərdən keçirmək lazımdır. Bu halda isə din azadlığı ilə bağlı müddəaları üç aspektdən təhlil etmək mümkündür:

1) Din azadlığının sadəcə özünəməxsus mahiyyət və məzmununun aşkar olunması. Bu halda, hüquq ədəbiyyatlarında (məsələn, İ.R.Aminov[29],

[26] Human Rights and Equal Opportunity Commission. Article 18. Freedom of religion and belief. Sydney: "J.S. McMillan Pty Ltd", 1998, p. 10.
[27] Musalo K. Claims for protection based on religion or belief: analysis and proposed conclusions // International Journal of Refugee Law, 2004, Vol. 16, Issue 2, pp. 165-177.
[28] Gonzalez G. La Convention europeenne des droits de l'homme et la liberte des religions / Economica, 1997, pp. 53-54.
[29] Аминов И.Р Реализация права на свободу вероисповедания в пенитенциарных учреждениях Российской Федерации. Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. Санкт-Петербург: 2003, с. 9-10.

T.P.Minçenko[30] və s.) forma etibarilə, "din azadlığı" və ya "dini etiqad azadlığı" terminlərindən istifadə edilir.

2) Din azadlığının vicdan azadlığı ilə qarşılıqlı şəkildə qiymətləndirilməsi, habelə onların ümumi və fərqli cəhətlərinin qeyd olunması[31];

3) Din azadlığının forma baxımından vicdan azadlığı kimi xarakterizə edilməsi və birincinin yalnız bu ad altında nəzərdən keçirilməsi[32].

Bir sıra hallarda din azadlığı digər formalarda (məsələn, "dünyagörüşü azadlığı" [33]) ifadə olunur.

Universal və regional səviyyədə qəbul olunmuş beynəlxalq sənədlərdə isə din azadlığı vicdan və fikir azadlığı ilə qarşılıqlı əlaqədə nəzərdən keçirilir. Nümunə qismində 1948-ci ildə qəbul olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (maddə 18), 1966-cı il tarixli "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt" (maddə 18), "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1965-ci il tarixli BMT Beynəlxalq Konvensiyası (maddə 5), "Uşaq hüquqların haqqında" 1989-cu il Konvensiyası (maddə 14), "İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyası (maddə 9), 2000-ci ildə Avropa İttifaqı çərçivəsində qəbul olunmuş "Əsas hüquqlar haqqında Xartiya" (maddə 10), "İnsan və xalqların hüquqları üzrə" 1981-ci il Afrika Xartiyası (maddə 8), 1990-cı il tarixli "Uşaq hüquqları və rifahı haqqında Afrika Xartiyası" (maddə 9), 1969-cu il tarixli "İnsan hüquqları üzrə Amerikaarası Konvensiyası" (maddə 12), "Dözümsüzlüyün və din və ya əqidə əsasında ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" 1981-ci il BMT Bəyannaməsi (maddə 1) və digərlərini göstərmək olar. Bəzi beynəlxalq-hüquqi aktlarda (məsələn, 1994-cü il tarixli "Qadınlara qarşı zorakılığın

[30] Минченко Т.П. Европейская концепция религиозной свободы и свободы совести: идеологические источники и законодательное закрепление / Вестник Томского государственного университета, 2010, № 333, с. 36.

[31] Ловинюков А.С. Свобода совести (анализ, практика, выводы) // Государство и право. 1995. № 1, с. 24-36; Пролетенкова С.Е. Особенности реализации конституционных прав свободы совести и свободы вероисповедания военнослужащими, сотрудниками ОВД и иных правоохранительных органов. Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. Санкт-Петербург: 2005, с. 12-14; Бурьянова С.А. Реализация конституционной свободы совести и свободы вероисповедания в Российской Федерации. М.: «Мир», 2009, с. 56; Вишнякова И.Н. Конституционно-правовое регулирование свободы вероисповедания. Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. М.: 2000, с. 5-6.

[32] Живулин В.А. Теоретико-правовые основы регулирования современных государственно-конфессиональных отношений в Российской Федерации. Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. Нижний Новгород: 2006, с. 22; Gavizon R. Human Rights in Israel. Tel-Aviv, MOD, 1994, p. 45; Shelach H. On the definition of conscientious activity. In: Freedom of Conscientious and Religion. Edited by R.Gavizon. Jerusalem, Association for Civil Rights, 1990, p. 48; Рудинский Ф.М. Свобода совести в СССР: конституционно-правовой аспект // Вопросы научного атеизма. М., 1981. Вып. 27, с. 26-40.

[33] Лупарев Г.П. Свобода совести: «священная корова» или конституционно-правовой анахронизм? // Религия и право, 2002, № 2, с. 6.



qarşısının alınması, cəzalandırılması və ləğv edilməsi haqqında Amerikaarası Konvensiya"nın 4-cü maddəsi) isə bu subyektiv imkan "din və etiqadı bəyan etmək azadlığı" formasında xarakterizə edilmişdir.

Elmi araşdırmalarda və beynəlxalq-hüquqi tənzimetmədə olduğu ki, dövlətdaxili qanunvericilik aktlarında da din azadlığı müxtəlif formalarda ehtiva edilmişdir. Belə ki, Azərbaycan Respublikasının milli qanunvericiliyində müvafiq subyektiv imkan "vicdan azadlığı" (Konstitusiyanın 48-ci maddəsi) və "dini etiqad azadlığı" ("Dini etiqad azadlığı haqqında" 20 avqust 1992-ci il tarixli Qanun) formasında təsbit olunmuşdur. Xarici ölkələrin konstitusiyalarında isə din azadlığı müxtəlif adlar altında – "vicdan və din azadlığı" *(Albaniya Konstitusiyasının 24-cü maddəsi, Xorvatiya Konstitusiyasının 40-cı maddəsi, Polşa Konstitusiyasının 53-cü maddəsi, Rusiya Federasiyası Konstitusiyasının 28-ci maddəsi)*, "dini etiqad azadlığı" (İtaliya Konstitusiyasının 19-cu maddəsi), "din azadlığı" *(Lüksemburq Konstitusiyasının 19-cu maddəsi, Yaponiya Konstitusiyasının 20-ci maddəsi)*, "din və fəlsəfi əqidə azadlığı" *(İsveçrə Konstitusiyasının 15-ci maddəsi)*, "etiqad azadlığı" *(Əlcəzair Konstitusiyasının 36-cı maddəsi)*, "vicdan və etiqad azadlığı" *(Almaniya Konstitusiyasının 41-ci maddəsi, Namibiya Konstitusiyasının 21-ci maddəsi)*, "ideologiya, din və ibadət azadlığı" *(İspaniya Konstitusiyasının 16-cı maddəsi)*, "dinə münasibətini müstəqil müəyyən etmək" *(Belarus Konstitusiyasının 31-ci maddəsi, Tacikistan Konstitusiyasının 26-cı maddəsi)*, "vicdan, din və ibadət azadlığı" *(Qırğızıstan Konstitusiyasının 16.2-ci maddəsi)*, "din və etiqad azadlığı" *(Türkmənistan Konstitusiyasının 12-ci maddəsi)*, "vicdan azadlığı" *(Qazaxıstan Konstitusiyasının 22-ci maddəsi, Özbəkistan Konstitusiyasının 31-ci maddəsi, Moldova Konstitusiyasının 31-ci maddəsi)*, "dünyagörüş və dini etiqad azadlığı" *(Ukrayna Konstitusiyasının 35-ci maddəsi)*, "dini ayinləri icra etmək" *(Qətər Konstitusiyasının 50-ci maddəsi)* və digər formalarda ifadə edilmişdir.

İstənilən halda müvafiq subyektiv imkanın din azadlığı kimi formulə edilməsi və bu qaydada məzmunun müəyyən olunması daha məqsədəmüvafiq olardı. Çünki din azadlığı geniş mənada ifadə edilməklə, həm ənənəvi və qeyri-ənənəvi dinləri, həm də dini etiqadla bağlı məsələləri kompleks şəkildə özündə birləşdirir. Bunu İnsan Hüquqları Komitəsinin "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"ın 18-ci maddəsinin təfsir edilməsinə yönəlmiş 1993-cü il tarixli 22 nömrəli Ümumi Rəyi bir daha sübut edir.

**Üçüncü paraqrafda** din-dövlət münasibətlərinin tənzimlənməsinin din azadlığının müdafiəsinə təsirinin əsas aspektləri araşdırılmış, eləcə də bu sahədə mövcud olan bir sıra elementlər (dinin dövlətdən ayrılması, dünyəvilik, dözümlülük) elmi-nəzəri fikirlər və normativ müddəalar təhlil edilmişdir.

Şübhəsiz ki, din-dövlət münasibətləri istər hüquq elmində, istərsə də digər elmi ədəbiyyatlarda müxtəlif aspektlərdən qiymətləndirilmişdir. Belə ki, bir sıra müəlliflər bu münasibətlərin üç modelini (inteqrasiya, ayrılma, əməkdaşlıq) fərqləndirməklə, həmin modellərə uyğun olaraq dövlətin iki əsas formasını – dini və dünyəvi dövlət formalarını qeyd edirlər[34]. Dünyanın bəzi dövlətlərinin konstitusiyalarında isə din-dövlət münasibətləri birbaşa şəkildə öz əksini tapmışdır. Nümunə qismində Danimarka Konstitusiyasının 4-cü, Norveç Konstitusiyasının 2-ci, İslandiya Konstitusiyasının 62-ci, Yunanıstan Konstitusiyasının 3-cü, Bolqarıstan Konstitusiyasının 13-cü və İspaniya Konstitusiyasının 16-cı maddələrini göstərmək olar[35].

Din-dövlət münasibətlərinin tənzimlənməsində dünyəvilik meyarı da mühüm əhəmiyyət kəsb edir. Çünki dünyəvilik təkcə dinin dövlətdən ayrılması prinsipi kontekstində konkret rəhbər başlanğıcın əsasını təşkil etmir, həmçinin, din azadlığının qorunması, müdafiəsi və realizəsinə əsaslı təsir edən amillərdən biri sayılır. Bütövlükdə, götürdükdə isə dünyəviliyin bir sıra modelləri ("liberal-plüralizm" modeli[36], Hindistan modeli[37], Amerikan modeli[38], Almaniya modeli[39], Azərbaycan modeli), habelə müxtəlif meyarlar əsasında təsnifləşdirilən ayrı-ayrı növləri (müsbət və ya qoruyucu dünyəvilik və passiv dünyəvilik[40]; fransız dilində *"laicite"* formasında ifadə olunan və tərcümədə dünyəvilik kimi göstərilən xüsusi növ və yəhudi-xristianlıq dünyəviliyi[41]) tədqiqat və müzakirə obyekti kimi nəzərdən keçirilmişdir.

Dünyəviliyin tarixi təşəkkülü və inkişafı isə elmi araşdırmalarda, əsas etibarilə, dörd mərhələyə ayrılır:

[34] Старостенко В.В. Религия и свобода совести в Беларуси: очерки истории: Монография. Могилев: УО «МГУ им. А.А.Кулешова», 2011, с. 78.
[35] Конституции государств Европы. В 3 т. Т.2. Под общ. ред. Л.А.Окуньков. М.: Изд-во «НОРМА», 2001, с. 25, 53, 396, 646, 658, 761.
[36] Maclure J., Taylor C. Secularism and Freedom of Conscience. Cambridge: Harvard University Press, 2011, p. 33-46.
[37] Бхаргава Р. Индийская модель секуляризма: контекстуальность и принципиальная дистанция (интервью) // «Государство, религия, церковь в России и за рубежом», 2014, № 2, с. 255-258.
[38] Nussbaum M.C. Liberty of Conscience: in defense of America's tradition of religious equality. New-York: Basic Books, 2008, pp. 22-25; Maclure J., Taylor C. Secularism and Freedom of Conscience. Cambridge: Harvard University Press, 2011, p. 21
[39] Беллинг Д.В., Бойко А.В., Серова Н.Б. Актуальные проблемы государственно-конфессиональных отношений в Российской Федерации (сравнительно-правовой анализ с государственно-церковными отношениями в ФРГ) // Религиоведение, 2007, № 4, с. 113-114.
[40] Kuru A.T. Democracy, Islam, and Secularism in Turkey. New York: Columbia University Press, 2012, p. 95.
[41] Hurd Shakman E. The Politics of Secularism in International Relations. Princeton: Princeton University Press, 2008, pp. 68-70.



1) Birinci mərhələdə M.Lüter, İ.Kant və digər filosoflar öz mühakimə və fikirlərində dövlət və dini nəzəri əsaslar baxımından fərqləndirmişlər.

2) İkinci mərhələdə bu iki elementin praktiki cəhətdən fərqləndirilməsinə başlanılmış, onların müəyyən hüquq və vəzifələr malik olması əsaslandırılmışdır. Bununla belə, dinin dövlətə tabe olması və sonuncu tərəfindən idarə olunmasının elementləri özünü aydın şəkildə büruzə vermişdir.

3) Üçüncü mərhələdə isə dinin dövlətdən və ictimai həyatdan bütövlükdə ayrılması tendensiyası geniş təşəkkül tapmışdır.

4) Sonuncu mərhələ isə dünyəviliyin müasirlik və inkişaf mərkəzinə çevrilməsi dövrünün xarakterizə olunduğu tarixi məqam kimi formalaşmışdır[42].

**II Fəsil "Din azadlığının müdafiəsi, təminatı və yerinə yetirilməsinə dair münasibətlərin tənzimlənməsində beynəlxalq mexanizmlərin yeri və rolu" adlanmaqla üç paraqrafı ehtiva edir.**

**Birinci paraqrafda** din azadlığının beynəlxalq müdafiəsi, təminatı və yerinə yetirilməsinə dair əsas müddəaların müəyyənləşdirilməsində aparıcı vasitə kimi ayrı-ayrı universal beynəlxalq müqavilə normaları təhlil edilərək araşdırılmışdır.

Din azadlığının qorunması və müdafiəsi beynəlxalq sənədlərdə fərdi və kompleks şəkildə nəzərdə tutulmuşdur. Yəni, *fərdi mənada*, yalnız din azadlığı və onun tərkib elementlərinin müdafiəsi və təminatı ayrıca xüsusi beynəlxalq sənəddə təsbit olunduğu halda, *kompleks şəkildə* isə digər subyektiv imkanların qorunması kontekstində nəzərdən keçirilmişdir. Məhz bu baxımdan, din azadlığı ilə bağlı müddəaların hüquqi və normativ baxımdan xarici ifadə formasına görə, müvafiq universal beynəlxalq sənədləri aşağıdakı meyarlar üzrə təsnifləşdirmək və təhlil etmək daha məqsədəmüvafiq olardı:

1) Bütövlükdə insan hüquqları və əsas azadlıqlarının müdafiəsini nəzərdə tutmaqla, insan hüquqlarının tərkib hissəsi kimi din azadlığına dair müddəaları ümumi şəkildə əks etdirən universal beynəlxalq sənədlər (məsələn, 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 1966-cı ildə qəbul olunmuş "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt" və s.);

2) Din azadlığının və onun ayrı-ayrı tərkib elementlərinin realizəsi, qorunması, müdafiəsi və təminatı ilə bağlı müddəaları kompleks şəkildə özündə birləşdirən universal beynəlxalq aktlar (məsələn, "Dözümsüzlüyün və din və ya əqidə əsasında ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1981-ci il BMT Bəyannaməsi, "Dözümlülüyün prinsipləri haqqında" 1995-ci il

[42] Wilson E.K. After Secularism: Rethinking Religion in Global Politics. New-York: Palgrave Macmillan, 2012, p. 56.

YUNESKO Bəyannaməsi, "Milli, etnik, dini və dili azlıqlara mənsub şəxslərin hüquqları haqqında" 1992-ci il BMT Bəyannaməsi və s.);

3) Konkret subyektiv imkanın (məsələn, bərabərlik hüququ, ayrı-seçkilikdən müdafiə hüququ, əmək hüququ, təhsil hüququ və s.) müdafiəsinə yönəlmiş, lakin din azadlığının qorunması və dini zəmində ayrı-seçkiliyin qadağan olunmasına dair normaları öz strukturunda ehtiva edən universal beynəlxalq müqavilələr (Məsələn, "Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında" 1960-cı il YUNESKO Konvensiyası, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında" 1965-ci il Beynəlxalq Konvensiya, YUNESKO-nun "İrqçilik və irqi xurafat barədə" 1978-ci il Bəyannaməsi və s.);

4) Cəmiyyətdə mövcud olan ayrı-ayrı qrupların (məsələn, qaçqınlar, uşaqlar, əməkçi-miqrantlar və s.) müdafiəsini nəzərdə tutmaqla, onlara məxsus hüquqların, o cümlədən din azadlığının təminatını müəyyən edən sahəvi universal beynəlxalq müqavilələr (məsələn, "Qaçqınların statusuna dair" 1951-ci il Konvensiyası, "Uşaq hüquqları haqqında" 1989-cu il Konvensiyası, "Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında" 1990-cı il Beynəlxalq Konvensiya və s.);

5) Cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsini, habelə beynəlxalq cinayətlərin tərkib elementlərini və digər səciyyəvi xüsusiyyətlərini nəzərdə tutmaqla, din azadlığının pozulmasını və dini cinayətləri özündə ehtiva edən universal beynəlxalq müqavilələr (məsələn, "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" 1948-ci il Konvensiyası, "Beynəlxalq terrorçuluğun ləğvinə dair tədbirlər haqqında" 1994-cü il BMT Bəyannaməsi, "Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında" 2005-ci il Beynəlxalq Konvensiya və s.).

**İkinci paraqraf** din azadlığının müdafiəsi, təminatı və yerinə yetirilməsində regional tənzimetmənin əsas istiqamət və üsullarına həsr olunmuşdur.

Din azadlığı və onun müxtəlif tərkib elementləri çoxsaylı regional beynəlxalq aktlarda, eləcə də ayrı-ayrı beynəlxalq qurumların qəbul etdiyi müxtəlif sənədlərdə kompleks şəkildə təsbit olunmaqla, region dövlətlərinin qanunvericiliyinə hərtərəfli təsir göstərir. Bunun bariz nümunəsi kimi Avropa İttifaqının *(2000-ci il tarixli "Əsas hüquqlar haqqında Xartiyası")*, Avropa Şurasının (*1950-ci il tarixli "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya")* və Avropa Şurası Parlament Assambleyasının *(24 aprel 2013-cü il tarixli "Din və etiqadla əlaqədar insan hüquqlarının müdafiəsi, həmçinin dini birliklərin zorakılıqdan qorunması haqqında" 1928 saylı Qətnaməsi, 1991-ci il tarixli "Avropa mədəniyyətinə İslam sivilizasiyasının töhfəsi barədə" 1162 nömrəli Tövsiyəsi, "Mərkəzi və Şərqi Avropada din və dəyişiklik haqqında" 2002-ci il tarixli 1556 nömrəli Tövsiyəsi, 2008-ci il tarixli 1831 nömrəli "Ekstremizmlə üzləşən Avropa müsəlman icmaları haqqında" Tövsiyəsi, 2011-ci il tarixli "Orta Şərqdə xristianlara qarşı zorakılıq haqqında" 1957 saylı Tövsiyəsi, "Din və demokratiya haqqında" 1999-cu il tarixli 1396 saylı Tövsiyə, 2005-ci il tarixli "Təhsil və din haqqında" 1720 saylı Tövsiyə, "Avropada qadınlar və din barədə" 2005-ci il tarixli 1464 saylı Qətnamə, "Dini etiqadlara hörmət və fikir azadlığı barədə" 2006-cı il tarixli 1510 saylı Qətnamə, "Dövlət, dünyəvilik və insan hüquqları haqqında" 2007-ci il tarixli 1804 saylı Tövsiyə, "Kreasionizmin təhsil qarşısında törətdiyi təhlükə haqqında" 2007-ci il tarixli 1580 saylı Qətnamə və s.)* normayaradıcılıq fəaliyyətini qeyd etmək yerinə düşərdi.

Bundan əlavə, ATƏT-in (*1975-ci il Helsinki Yekun Aktı, 1983-cü il tarixli Madrid Yekun Sənədi, 1989-cu il tarixli Vyana Yekun Sənədi, 1990-cı ildə keçirilən Kopenhagen Konfransının Yekun Sənədi, 1994-cü il Budapeşt Konfransının Zirvə Bəyannaməsi, 1999-cu il tarixli "Avropa Təhlükəsizliyi Xartiyası", Xarici İşlər Nazirləri Şurasının "Tolerantlıq və ayrı-seçkiliyin yolverilməzliyinə dair" 2003-cü il tarixli 4 saylı Maastrixt Qərarı)*, MDB-nin *("İnsan hüquqları və əsas azadlıqları haqqında" 1995-ci il Konvensiyası, "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əməkçi miqrantlarının və onların ailə üzvlərinin hüquqi statusu haqqında" 2008-ci il tarixli Konvensiya, 2009-cu il tarixli "Cinayətkarlıqla mübarizə sahəsində məlumat mübadiləsi haqqında" Saziş)*, Afrika İttifaqının *("İnsan və xalqların hüquqları haqqında" 1981-ci Afrika Xartiyası)*, Amerika Dövlətləri Təşkilatının *(1948-ci il tarixli "İnsan hüquqları və vəzifələri haqqında" Amerika Bəyannaməsi, "İnsan hüquqları haqqında" 1969-cu il Amerika Konvensiyası)* bu sahədə fəaliyyətinin, eləcə də 1990-cı il tarixli "İnsan hüquqlarına dair İslam Bəyannaməsi"ndə əks olunan müddəaların din azadlığının regional səviyyədə tənzimlənməsinə effektiv təsir göstərməsini təqdirəlayiq hal kimi qiymətləndirmək lazımdır.

**Üçüncü paraqrafda** din azadlığının təmin edilməsinin mühüm vasitəsi kimi beynəlxalq məhkəmə mexanizmlərinin bu sahədəki yeri və rolu elmi-nəzəri və praktiki baxımdan qiymətləndirilmişdir.

Məsələ bundan ibarətdir ki, tarixin ilkin mərhələlərində xalqların şüurunda məhkəmənin repressiv orqan olaraq, cəzalandırmaq və sanksiya tətbiq etmək funksiyasına malik olması fikri formalaşsa da, müasir dövrdə hüquqi dövlətlərdə məhkəmə, əsas etibarilə, vətəndaşların özbaşınalıq və qanunsuzluqdan müdafiə etmək rolunu oynamaqdadır[43]. Şübhəsiz ki, bu sahədə beynəlxalq məhkəmə

[43] Права человека. История, теория и практика. Учебное пособие. Отв. ред. Б.Л. Назаров. М.: «Наука», 1996, с. 87-96.

mexanizmlərinin xüsusi və müstəsna rolunu qeyd etmək lazımdır. İlk növbədə, Avropa İnsan Hüquqları Məhkəməsinin fəaliyyətini vurğulamaq yerinə düşərdi. Belə ki, Məhkəmənin baxış predmeti olmuş *Ahmad Böyük Britaniyaya qarşı"* (1981), *"Stedman Birləşmiş Krallığa qarşı"* (1997)[44], *"Kosteski Makedoniya Keçmiş Yuqoslaviya Respublikasına qarşı"* (2006) [45],*"Leyla Şahin Türkiyəyə qarşı"* (2005)[46], *"Çuvaşiya Respublikasının Bibliya Mərkəzi Rusiyaya qarşı"* (2014) [47],*"Serif Yunanıstana qarşı" (1999), "Hasan və Chaush Bolqarıstana qarşı" (2000), "Bessarabiyanın Metropolitan Kilsəsi və digərləri Moldovaya qarşı" (2002)*[48] və s. işlər üzrə çıxarılan qərarlarda din azadlığının müxtəlif aspektləri (məsələn, din azadllığının realizəsinin əmək və icra intizamının pozulmasına təsiri, ali məktəb daxilində tələbələr üçün nəzərdə tutulan geyim daşıma qaydasını pozulması və din azadlığı, dini toplaşmaq və birləşmək azadlığının pozulması, din azadlığına dövlətin hər hansı fəaliyyətinin müdaxiləsi) hüquqi baxımdan qiymətləndirilmişdir.

Bundan əlavə, Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən din azadlığının müxtəlif elementləri – dini etiqadın yerinə yerinə yetirilməsi *("Erousmit Birləşmiş Krallığa qarşı" (1977))*, din və vicdan azadlığının kollektiv aspektləri (*"Bessarabiyanın Metropoliten Kilsəsi Moldovaya qarşı" (2001))*, məhbuslar və din azadlığı problemi *("Kuznetsov Ukraynaya qarşı" (2003))*, dini qurumların qeydiyyatı *("Leela Forderkreis E.V. və başqaları Almaniyaya qarşı" (2008))*, prozelitizm *("Kokkinakis Yunanıstana qarşı" (1993))* və s. məsələlərlə bağlı çıxardığı çoxsaylı qərarlar sözügedən subyektiv imkanın məhkəmə müdafiəsi ilə bağlı presedent hüququnun formalaşmasına gətirib çıxarmışdır[49].

Yeri gəlmişkən, Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsi milli məhkəmələrdə insan hüquqlarının müdafiəsinə dair qabaqcıl və beynəlxalq

[44] Taylor P.M. Freedom of religion. UN and European Human Rights Law and Practice. New-York: Cambridge University Press, 2005, p. 189.
[45] Morawa A. The Evolving Human Right to Equality / European Yearbook of Minority Issues, 2001, Vol. 1, Issue 2, p. 189.
[46] Baillie L.C. Protection of Religious Minorities in Europe: The Council of Europe's Successes and Failures / American University International Law Review, 2007, Vol. 23, Issue 3, p. 626.
[47] İnsan hüquqları üzrə Avropa Məhkəməsinin Bülleteni. Bakı: "Bakı Hüquq Mərkəzi", 6/2014, s. 31-33.
[48] Shelton D. Regional protection of human rights. Oxford: Oxford University Press, 2008, pp. 328-329; Lehnhof L. The European Court`s Freedom of Association the Implications for Islam. In: Islam, Europe and Emerging Legal Issues. Edited by W.Cole, Jr.Durham, R.Torfs, D.M.Kirkham, Ch.Scott. London: "Ashgate Pub Co", 2012, p. 308; Taylor P.M. Freedom of religion. UN and European Human Rights Law and Practice. New-York: Cambridge University Press, 2005, p. 245.
[49] Murdoch J. Protecting the right to freedom of thought, conscience and religion under the European Convention on Human Rights. Council of Europe human rights handbooks. Strasbourg: Council of Europe, 2012, p. 91.



hüquq normalarına uyğun fəaliyyətin formalaşmasına da öz müsbət təsirini göstərməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Fərmanının 6-cı bəndinə əsasən, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun öyrənilməsi işinin təşkil edilməsi və onun məhkəmə təcrübəsində nəzərə alınması Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə tövsiyə edilmişdir. Bunun davamı olaraq, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası müddəalarının və Avropa İnsan Hüquqları Məhkəməsinin presedentlərinin tətbiqi haqqında 30 mart 2006-cı il tarixli Qərarında qeyd edilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə bağlı məhkəmələr milli qanunvericiliklə yanaşı, Avropa Konvensiyası müddəalarını da rəhbər tutmalı və bu zaman Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinə istinad etməlidirlər. Qeyd edilənlər Avropa İnsan Hüquqları Məhkəməsinin presedentlərinin tətbiqi praktikasına dövlətimiz tərəfindən yanaşılan müsbət münasibətin bir daha təcəssümüdür. Bundan başqa, BMT-nin İnsan Hüquqları Şurasının Cenevrədə 2013-cü il 22 aprel - 03 may tarixlərində keçirilmiş Dövri İcmal üzrə İşçi qrupunun hesabatında məhkəmə qərarlarının beynəlxalq konvensiyalara əsaslandığı qeyd edilmişdir[50].

Din azadlığının məhkəmə müdafiəsindən danışarkən, Avropa İttifaqı Məhkəməsinin (və ya Avropa Birliyi Məhkəməsinin) *"Viviyen Preys Şuraya qarşı"* (1976)[51], *"Dövlət Katibi Van Justitie Mangat Sinqhə qarşı"* (2012)[52], İnsan Hüquqları üzrə Amerikaarası Məhkəmənin *"Olmedo Bustos və b. Çiliyə qarşı"* (2001) işi (digər adı *"İsanın son nəfsi"* yaxud *"Günaha son çağırış"*)[53], İnsan və Xalqların Hüquqları üzrə Afrika Komissiyasının *"Şərqi Afrikada*

[50] BMT-nin İnsan Hüquqları Şurasının Cenevrədə 2013-cü il 22 aprel - 03 may tarixlərində keçirilmiş Dövri İcmal üzrə İşçi qrupunun hesabatı. İngilis dilindən qeyri rəsmi tərcümə. Bakı, 2013, s. 15.
[51] Robbers G. Religion and Law in Germany. The Hague: Kluwer Law International, 2010, p. 209.
[52] Peers S. The Court of Justice lays the foundations for the Long-Term Residents Directive: Kamberaj, Commission v. Netherlands, Mangat Singh // Common Market Law Review, 2013, Vol. 50, Issue 2, pp. 536-537.
[53] Pasquallucci Jo M. The Practice and Procedure of the Inter-American Court of Human Rights. Second edition. Cambridge: Cambridge University Press, 2013, pp. 10-11, 183, 217, 220; Mayr S. Putting a Leash on the Court of Justice? Preconceptions in National Methodology v *Effet Utile as* a Meta-Rule // European Journal of Legal Studies, 2012, Vol. 5, Issue 2, pp. 11-12.

*Yepiskop Konfransı Üzvlərinin Assosiasiyası Sudana qarşı"* (2000)[54] işləri üzrə çıxardıqları qərarları da xüsusilə vurğulamaq yerinə düşərdi.

Azərbaycan Respublikasında din azadlığının məhkəmə müdafiəsi ilə bağlı təcrübəyə müraciət etsək, bir sıra məhkəmə qərarlarının mövcudluğunun şahidi ola bilərik. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanının razılığı" müddəasının şərh edilməsinə dair" 13 iyun 2013-cü il tarixli Qərarını[55], eləcə də Bakı şəhəri, Xətai rayonunda fəaliyyət göstərən Dindarların Dini İcmasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin (hazırkı Mədəniyyət və Turizm Nazirliyinin) "Muzey sərvətləri və xatirə əşyaların Elmi-Bərpa Mərkəzi"nin "Bəylər" məscidindən köçürülməsi və məscidin dini icmanın istifadəsinə verilməsinin Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinə (indiki İqtisadiyyat və Sənaye Nazirliyinə) həvalə edilməsinə dair iddiası ilə əlaqədar Azərbaycan Respublikası 1 saylı Bakı Yerli İqtisad Məhkəməsinin 10 sentyabr 2007-ci il tarixli və bununla əlaqədar Bakı Apelyasiya Məhkəməsinin 17 yanvar 2008-ci il tarixli qətnamələrini və s. nümunə göstərmək olar[56].

**III Fəsil "Din azadlığının müdafiəsi və təmin edilməsi sahəsində dövlətdaxili qanunvericilik və milli mexanizmlər" adlanmaqla iki paraqrafı özündə birləşdirir.**

**Birinci paraqrafda** din azadlığı ilə bağlı münasibətlərin tənzimlənməsində beynəlxalq hüquq normalarının implementasiyası kontekstində Azərbaycan Respublikasının qanunvericiliyinin təkmilləşdirilməsi məsələsi təhlil olunmaqla, bu sahədə mövcud olan dövlətdaxili normalar xarakterizə olunur və qarşıya çıxan problemlərin həlli yolları göstərilir.

Dissertasiya işində Azərbaycan Respublikasında din azadlığı münasibətlərinin tənzimlənməsinin tarixi mərhələləri ayrı-ayrılıqda təhlil olunaraq araşdırılmışdır. Müasir dövrdə, xüsusilə müstəqillik əldə etdikdən sonra ölkəmizdə bu məsələ ilə bağlı tənzimetmə mexanizmi qismində ümumi rəhbər başlanğıcları müəyyən edən 1995-ci il Konstitusiyasının 48-ci maddəsi və digər aidiyyəti müddəaları, habelə din azadlığı və onun ayrı-ayrı elementləri ilə bağlı münasibətləri nizama salan sahəvi və xüsusi qanunvericilik aktları *(20 avqust 1992-ci il tarixli "Dini etiqad azadlığı haqqında" Qanun; 13 mart 1996-cı il tarixli "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Qanunun 18-ci maddəsi; Cinayət Məcəlləsinin 109, 167-168-ci*

[54] Moucheboeuf A. Minority rights jurisprudence digest. Strasbourg: Council of Europe, 2006, pp. 504-505.
[55] www.constcourt.gov.az/decisions/269
[56] www.bakuappealcourt.gov.az/decision/2-1(103)-36-17.01.08-qetname.pdf



*maddələri; Ailə Məcəlləsinin 58-60-cı maddələri; Cəzaların İcrası Məcəlləsinin 13-cü maddəsi)* çıxış edir. Həmin normalarda əks olunan müddəalar isə beynəlxalq hüquq normalarının implementasiyasının nəticəsi sayılmaqla, Azərbaycan Respublikasının üzərinə qoyulan beynəlxalq öhdəliklərinin icrasının bariz nümunəsi sayıla bilər.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının qanunvericiliyində din azadlığının ümumi şəkildə məhdudlaşdırılmasını nəzərdə tutan normalara rast gəlinmir. Lakin ayrı-ayrı kateqoriyalara aid olan bəzi şəxslərə (məsələn, hərbçilər, azadlıqdan məhrum edilmiş şəxslər, əcnəbilər) münasibətdə, habelə dinə etiqad edən şəxslərin birləşdikləri qurumlara münasibətdə bu cür hallara yol verilə bilər. Belə ki, "Dini etiqad azadlığı haqqında" Qanunda müvafiq məhdudlaşdırılma ilə bağlı bir sıra normalar da nəzərdə tutulmuşdur:

- Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğat aparılması qadağandır (maddə 1.4);
- Dini qurumlar siyasi partiyaların fəaliyyətində iştirak etmir və onlara maliyyə yardımı göstərmirlər (maddə 5.5);
- İslam dini icmaları məscidlərdə Respublikasının vətəndaşları tərəfindən yaradılır (maddə 8.4);
- Dini təhsil müəssisəsi sayı birdən çox olmamaqla, yalnız dini mərkəz və idarələr tərəfindən yaradıla bilər (maddə 10.1);
- Dini qurumlar, dini qurum olmayan digər hüquqi və fiziki şəxslər müvafiq icra hakimiyyəti orqanının razılığı ilə dini təyinatlı ədəbiyyatı (kağız və elektron daşıyıcılarda), audio və video materialları, mal və məmulatları, dini məzmunlu digər məlumat materiallarını istehsal, idxal, ixrac edə, habelə onları nəzarət markası ilə markaladıqdan sonra sərbəst yaya bilərlər (maddə 22.2).

Bununla belə, qeyd olunan normalar din azadlığının pozulması kimi dəyərləndirilə bilməz. Çünki həmin məhdudlaşdırmalar müəyyən məntiqə və zərurətə söykənir, habelə əksər hallarda beynəlxalq hüquq normalarına da uyğundur[57].

**İkinci paraqrafda** Azərbaycan Respublikasının təcrübəsində din azadlığının realizəsində dövlət qurumlarının və dini təşkilatların rolu təhlil olunur.

Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq, islam və bir çox başqa dini inanclar ölkədə bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmişdir. Bundan əlavə, tolerantlıq, dini, milli-irqi dözümlülük milli mentalitetimizin ayrılmaz cəhətlərindəndir. Məhz bunun nəticəsindədir ki,

[57] Həsənov S.S. Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikası Qanununun kommentariyası. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2014, s. 24.

yüzilliklər boyunca Azərbaycanda xalqlar vahid və mehriban bir ailə kimi yaşamış, etnik və dini icmalar arasında dözümlülük əlaqələri formalaşmış, milli, irqi, dini ayrı-seçkiliyə yol verilməmiş, müxtəlif dinlərə mənsub insanlar sülh və əmin-amanlıq şəraitində dinc-yanaşı fəaliyyət göstərmişlər[58].

Onu da qeyd etmək lazımdır ki, din azadlığının qorunması Azərbaycanda mövcud olan ənənəvi dini təşkilatların təsis sənədlərində də əsas fəaliyyət prinsiplərindən biri hesab edilir. Məsələn, Qafqaz Müsəlmanları İdarəsinin Nizamnaməsinin 1-ci maddəsinin 6-cı bəndinə görə İdarə digər dinlərin beynəlxalq və ərazi təşkilatlar ilə xeyirxah münasibətlər saxlayır, milli, irqi, dini ayrı-seçkiliyə yol vermir, başqa dinlərin və millətlərin adət-ənənələrinə hörmətlə yanaşır. Ölkənin aparıcı dini təşkilatı olan Qafqaz Müsəlmanları İdarəsi öz Nizamnaməsinin bu göstərişinə qeyd-şərtsiz riayət etməklə, Azərbaycanda tolerantlıq mühitinin formalaşmasına və qurulmasına ciddi töhfə verir[59].

Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixli Fərmanı ilə yaradılmış Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Əsasnaməsinə uyğun olaraq, sözügedən qurum dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsini, dini qurumlarla bağlı qanunvericiliyin müddəalarına riayət hazırlanmasını, müvafiq icra hakimiyyəti orqanlarının dini qurumlarla bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanı sayılır. Həmin qurumun praktiki fəaliyyətinə gəldikdə isə qeyd etmək yerinə düşərdi ki, Komitənin Mərkəzi Aparatında və ölkənin bütün şəhər və rayonlarında "Prezident seçkisi-2008: dindarlar seçici kimi", "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz", "Qeyri-ənənəvi dinlər və təriqətlər", "çağdaş Azərbaycan cəmiyyəti: mövcud dini problemlər", "Azərbaycan Konstitusiyasına edilən əlavə və dəyişikliklər dindarların gözü ilə" aktual mövzularda ümumilikdə 260-a yaxın seminar-treninq keçirilmişdir[60].

Eyni zamanda, dini etiqad azadlığının qorunması, təminatı və müdafiəsi ilə bağlı dövlətdaxili qurumlarının fəaliyyətində rəhbər tutulması üçün bir sıra sahəvi qanunvericilik aktlarının da adını çəkmək yerinə düşərdi. Nümunə qismində dini etiqad azadlığının təminatına şərait yaradan, dini qurumların statusunu, hüquq və vəzifələrini müəyyənləşdirən, habelə dini qurumların fəaliyyəti ilə bağlı yaranan münasibətləri tənzimləyən "Dini etiqad azadlığı haqqında" 20 avqust 1992-ci il tarixli Qanunu, ölkə ərazisində dini ekstremizmə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyən edən, dini ekstremizm

[58]Cəfərov M.M. Milli qanunvericilikdə dini etiqad azadlığı // "Dirçəliş-XXI əsr" jurnalı, 2008, № 126-127, s.187.
[59]Həsənov S.S. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun kommentariyası. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2014, s. 22.
[60]www.yeniazerbaycan.com/Sosial_e3295_az.html



əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının və vətəndaşların hüquq və vəzifələrini özündə ehtiva edən "Dini ekstremizmə qarşı mübarizə haqqında" 4 dekabr 2015-ci il Qanununu göstərmək olar.

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, beynəlxalq və dövlətdaxili hüquq üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**

1. Principles of freedom of conscience. Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, Bakı, 2013, №59, s. 272-275.
2. Din-dövlət münasibətlərinin tənzimlənməsinin dini etiqad azadlığının müdafiəsinə təsirinin əsas aspektləri. Bakı Universiteti Xəbərləri, Sosial-siyasi elmlər seriyası, Bakı, 2014, №4, s. 77-83.
3. Freedom of religion and the United Nations. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), Bakı, 2014 №4 (40), s. 143-148.
4. Dini etiqad azadlığının mahiyyəti və əsas məzmunu: elmi-nəzəri aspektlərin və hüquq normalarının qarşılıqlı təhlili. Nəqliyyat hüququ (elmi-nəzəri, təcrübi jurnal), Bakı, 2015, №2, s. 168-174.
5. "Dini etiqad azadlığı" və "vicdan azadlığı"nın terminoloji baxımdan qiymətləndirilməsi: nəzəri müddəaların və hüquqi normaların müqayisəli təhlili. Nəqliyyat hüququ (elmi-nəzəri, təcrübi jurnal), Bakı, 2015, №3, s. 170-177.
6. Məhkəmə müdafiəsi dini etiqad azadlığının təmin edilməsinin mühüm vasitəsi kimi. Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, Bakı, Humanitar elmlər seriyası, 2015, №42, s. 147-158.
7. Защита свободы религии в международном праве. Право І суспільство, Киів, 2015, 5-2, с. 3-9.
8. Dini etiqad azadlığının müdafiəsində Avropa İnsan Hüquqları Məhkəməsinin rolu: praktiki və nəzəri məsələlərin qarşılıqlı təhlili. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), Bakı, 2015 №1 (41), s. 42-48.
9. Dinin anlayışı və əsas məzmunu kontekstində din və insan hüquqlarının qarşılıqlı əlaqəsinin əsas aspektləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), Bakı, 2015 №3 (43), s. 24-30.
10. Dini etiqad azadlığının müdafiəsi və dinin dövlətdən ayrılması prinsipinin həyata keçirilməsində dünyəviliyin rolu. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, I Cild, 2015, s. 76-79.

# РЕЗЮМЕ

Представленная Нигяр Аладдин кызы Алекперовой диссертация на соискание ученой степени доктора философии по праву по специальности 5603.1 – «Международное право; права человека» на тему «Свобода религии: международные стандарты и внутригосударственное законодательство (сравнительный анализ)» является самостоятельным, творческим и завершенным исследовательским трудом. Диссертация, отражая в себе абсолютно новые научные положения, играет важную роль в анализе таких вопросов, как место права на свободу религии в системе прав человека, в том числе вопросов соотношения законодательства Азербайджанской Республики с международно-правовыми нормами в данной области. Диссертационная работа сформировалась на основе сравнительного анализа обширной международной договорной практики, законодательств различных государств, включая Азербайджанскую Республику, и разнообразных подходов, существующих в правовой литературе. Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во введении автор обосновывает актуальность темы, а также рассматривает степень разработанности проблемы, научную новизну, цели и задачи, научные положения, выносимые на защиту, теоретическую и практическую значимость исследования.

Первая глава диссертационной работы называется "Анализ свободы религии как составной части прав человека: в контексте соотношения научно-теоретических положений и норм права" и включает в себя три параграфа. В этой главе исследуются аспекты взаимосвязи религии и прав человека в контексте понятия и основного содержания религии, рассматривается содержание и сущность свободы религии на основе научно-теоретических подходов и практических положений, а также основные аспекты регулирования религиозно-государственных отношений, его влияние на защиту права на свободу религии.

Вторая глава диссертационной работы называется «Место и роль международных механизмов в регулировании отношений в сфере защиты, обеспечения и реализации свободы религии" и состоит из трех параграфов. В данной главе в научно-теоретическом и практическом контексте анализируется место и роль договорных норм универсального характера, региональных систем регулирования, а также международных судебных механизмов в данной области в качестве основного средства международной защиты, обеспечения и реализации свободы религии.

Третья глава диссертационной работы, состоящая из двух параграфов, называется «Внутригосударственное законодательство и национальные механизмы в сфере защиты и обеспечения свободы религии». В данной главе в контексте имплементации международно-правовых норм рассматриваются особенности законодательства Азербайджанской Республики в сфере регулирования отношений, связанных со свободой религии, и вопросы его усовершенствования, а также исследуется роль государственных органов и религиозных организаций Азербайджанской Республики в реализации права на свободу религии.

В заключении представлены полученные в ходе исследования важнейшие выводы и предложения, в том числе, раскрыто их теоретико-практическое значение для международной и внутригосударственной нормативной правовой системы.



# SUMMARY

The dissertation work presented by Nigar Aladdin Alakbarova for attaining the degree of Doctor of Philosophy in Law in the specialisation “5603.01- International law; human rights”. entitled “Freedom of religion: international standards and domestic legislation (comparative analysis)” is an independent, creative and completed work. The dissertation discusses new scientific theses and plays an important role in analysis of such issues as the position of freedom of religion in the human rights system, including issues of corelation between the legislation of the Republic of Azerbaijan and norms of international law in this field. The dissertation work is formed on the basis of comparative analysis of diverse approaches, existing in the legal literature, legislation of different countries, including Azerbaijan, and international human rights instruments. The dissertation work consists of introduction, three chapters, conclusion and bibliography.

Topicality is substantiated in the introduction. The scope of analysis and novelty of the topic, aims and goals, new scientific claims and new approaches to the topic presented for the defence, theoretical and practical importance of research are also discussed in the introduction.

The first chapter is entitled “Analysis of freedom of religion as a part of human rights: in the context of interrelation between scientific-theoretical theses and legal norms” and consists of three paragraphs. This chapter is devoted to the discussion of the aspects of interrelation between religion and human righs in the context of the concept of religion; the issue of content and nature of freedom of religion based on scientific-theoretical approaches and practical provisions; as well as the main aspects of regulation of religion-state relationships and its impact on the protection of freedom of religion.

The second chapter of the dissertation work is entitled “Importance and role of international mechanisms in regulation of relations in the field of protection, enforcement and implementation of freedom of religion” and consists of three paragraphs. This chapter discusses importance and role of universal treaty norms, regional mechanisms, as well as international judicial mechanisms in this field as the main instrument of international protection, enforcement and implementation of freedom of religion in the scientific-theoretical and practical context.

The third chapter of dissertation work, entitled “Domestic legislation and national mechanisms in the field of protection and enforcement of freedom of religion”, consists of two paragraphs. This chapter discusses the main characteristics of the legislation of the Republic of Azerbaijan in the field of regulation of relations, concerning freedom of religion, and the issues of its improvement in the context of implementation of norms of international law. It also analyzes the role of state bodies and religious organisations of the Republic of Azerbaijan in the realization of freedom of religion.

The conclusion of the dissertation work comprises the suggestions, the recommendations and the conclusions drawn based on the results of the research. The conclusion also considers theoretical and practical importance of the research for domestic and international legislative systems.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**НИГЯР АЛАДДИН кызы АЛЕКПЕРОВА**

# СВОБОДА РЕЛИГИИ: МЕЖДУНАРОДНЫЕ СТАНДАРТЫ И ВНУТРИГОСУДАРСТВЕННОЕ ЗАКОНОДАТЕЛЬСТВО (СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ)

**Специальность: 5603.01 - «Международное право; права человека»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ – 2016**